1.İqtisadi fikir tarixinin əsas funksiyasını, məqsəd və vəifələrini izah edin.(5)

İqtisadi fikirlər təsərrüfat həyatında həlledici rol oynamaqla, iqtisadi həyatda baş verən qanunauyğunluqların məntiqinin öyrənilməsini əsaslandırır. İqtisadi həyatda, xüsusən, istehsalın strukturunda, texnologiyasında, istehlakında, eləcə də insanların davranış qaydalarında baş verən dəyişikliklər yeni iqtisadi proseslərin meydana gəlməsinə səbəb olur. Müasir şəraitdə qlobal iqtisadi problemlər, iqtisadi inteqrasiya, iqtisadi təhlükəsizlik məsələləri ayrı-ayrı ölkələrin iqtisadiyyatlarının inkişafına müxtəlif səviyyədə təsir göstərir. Eyni zamanda yoxsulluğun aradan qaldırılması, insan potensialının inkişafı, qeyri-iqtisadi amillərin, xüsusən, mənəvi, dini amillərin rolunun nəzərə alınması iqtisad elmində mənəvi, sosioloji, institusional istiqamətlərin inkişafına real yol açmış olur.

Beləliklə, cəmiyyətin iqtisadi əsaslarının, iqtisadi fəaliyyətin prinsip və qanunauyğunluqlarının dərk olunması, mövcud iqtisadi vəziyyətin düzgün qiymətləndirilməsi, mürəkkəb təsərrüfatçılıq proseslərinə, işgüzar fəaliyyətə hazır olmaq insanlarda iqtisadi təfəkkürü və dünyügörüşü formalaşdırır. İqtisadi təfəkkürü daha geniş olanlar iqtisadiyyatda baş verən çətinlikləri daha tez anlayır və onların aradan qaldırılması üçün daha təsirli tədbirlər görə bilirlər. Həmçinin dünyada formalaşmış iqtisadi fikrin ən qabaqcıl nailiyyətlərindən istifadə edərək təsərrüfat qərarlarının qəbul olunması və ölkənin iqtisadi siyasətinin düzgün müəyyənləşdirilməsinə və həyata keçirilməsinə təsir göstərə bilirlər.

İFT-nin öyrənilməsi təkcə iqtisadi dünyagörüşün, xalis iqtisadi təfəkkürün formalaşması üçün deyil, eyni zamanda irəli sürülmüş elmi müddəaların məntiqinin mənimsənilməsindən ibarətdir. Çünki hazırkı şəraitdə bizim mənimsədiyimiz iqtisadi ideyalar sırf keçmişin elementlərinə əsaslanmır, eyni zamanda bu günkü və hətta gələcək iqtisdi görüşlərin elementlərinə əsaslanır.

2.Qədim Hindistanın iqtisadi fikrlərini-"Artxaşastra" traktatı əsasında izah edin. (5)

Qədim Hindistanın iqtisadi fikri öz əksini Kautili (e.ə. IV əsr) tərəfindən yazılmış «Artxaşastra» (artxe maddi qazanc) traktatında tapmışdır. O, torpaq qazanmağa (əldə etməyə), vergilər, ticarət mənfəəti, faizlər əldə etməyə həsr olunmuşdur. Burada iqtisadiyyat əkinçilik, heyvandarlıq və ticarətdən ibarət olmuşdu. «<lqtisadiyyat ümumiyyətlə təsərrüfat haqqında deyil, dövlət təsərrüfatı, xəzinədarlıq haqqında təlim olmuşdur.

<<Artxaşastra>> traktatında təsərrüfatın idarə edilməsi sahəsində praktiki biliklər əks olunmuşdur və ideal dövlətin idarə edilməsi üzrə ümumi təkliflər verilmişdir. İqtisadiyyat təsərrüfat haqqında deyil, dövlət təsərrüfatı, xəzinədarlıq haqında təilm olmuşdur. Traktatda təsərrüfatın və dövlətin idarə edilməsi sahəsində praktik təkliflər verilmişdir. Əsas diqqət çar təsərrüfatına və dövlət başçısının siyasətinə cəmləşmişdir. Düzgün idarəçiliyin məqsədi dövlət sərvətinin artması olmuşdur. Dövlət sərvəti əhalinin əməyinin nəticələrindən əmələ gəldiyindən ictimai ehtiyaclara: irriqasiya qurğularının saxlanılmasına. yol tikintisinə xərclənməlidir. Dövlət siyasətinin əsas məqsədi vergilərin köməyilə xəzinəni doldurmaq və dövlət əmlakının oğurlanması ilə mübarizə aparmaqdır. Dövlət başçısı ticarət alverçiliyi və sələmçiliklə mübarizə qeyd edilir.

3. Qədim Misir və Qədim Babilistanda ilkin iqtisadi ideyaların əmələ gəlməsi və inkişafını əsaslandırın.(10)

İqtisadi biliklərin ilk obyekti olan iqtisadi hadisələr: mübadilə, pul, qiymət, ticarət, mənfəət, borc faizi və s. qədim Şumerlilərə, Babilistanlilara və Misirlilərə ilk əvvəl məlum olmuşdur. Qədim Şərqdə artıq bizim eradan əvvəl IV minillikdə quldarlıq quruluşu və dövlət yaranmışdır, hakim olan na- tural təsərrüfatın içərilərində vaxtilə əmtəə-pul münasibətləri inkişaf etmişdir. Burada icma, dövlət və

xüsusi mülkiyyət formalı qarşılıqlı fəaliyyət göstərmişdi. Dövlət təsərrüfat həyatında geniş miqyasda iştirak etmişdir.

Qədim Misirdə Asiya istehsal üsullu cəmiyyət yəni, mərkəzləşdirilmiş dövlətin iqtisadi və siyasi hakimiyyətinin mütləq hökmranlığı və mülkiyyətin dövlət hakimiyyəti ilə birləşməsi mövcud olmuşdur. Ona görə də iqtisadi biliklərin əsasında natural xarakter daşıyan dövlət təsərrüfatının səmərəli təşkili və idarə olunması məsələləri və onların dərk edilməsi durmuşdu. İdarəçilik məsələsində maliyyə, hərbi və ictimai işlər xüsusi yer tuturdu. Təsərrüfat bilavasitə mərkəzləşmiş dövlət tərəfindən təşkil və idarə edilmişdir. Dövlət təsərrüfatının təşkili məsələləri irriqasiya qurğularının tikilməsində maddi, əmək və təbii (torpaq) resurslarının uçota alınmasından və məhsulların bölüşdürülməsindən, sahələrarası proporsionallığın təmin edilməsindən, sığorta fondunun yaradılmasından ibarət olmuşdur. Sosial iqtisadi hadisələrin güclü mərkəzləşdirilmiş bürokratik tənzimləmə mexanizmi olmuşdur. Ancaq dövlət aparatında yüksək vəzifə tutan şəxslərin təsərrüfatı olmuşdur. Vəzifəli adamların dövlət əmlakını mənimsədikləri xüsusi mülkiyyətin dövlət mülkiyyəti əsasından əmələ gəlməsi fikri hökmranlıq etmişdir və o, dövlət mülkiyyətinə qarşı qoyulmuşdur. Təsərrüfat natural xarakter daşıdığından, pula ehtiyac olmadığından, əmtəə-pul mübadiləsi zəif inkişaf etmişdir və əsasən adamlar və istehsalçılar arasında mal mübadiləsi üstünlük təşkil etmişdi.İlk əvvəl ümumi ekvivalent kimi mis, qismən də taxıl olmuşdusa, sonradan əsasən gümüş olmuşdu

Qədim Misirdə borc quldarlığının mövcudluğu sələmçiliyin geniş inkişafına səbəb olmuşdur. Çox vaxtı qul borca verilmiş və borc haqı qulu qısa müddətə icarəyə verməklə ödənilmişdir.

Qədim Şərqin iqtisadi fikrində Babilistan hökmdarlığının qanunvericiliyi və hökmdarların, xüsusilə də bizim e.ə. XVIII əsrdə fəaliyyət göstərməş Hökmdar Xammurapinin (1792-1750-ci illər) qanunları xüsusi yer tutmuşdur. Qanunlarda dövlət tənzimlənməsinin və əhalinin iqtisadi fəaliyyətinə nəzarətin müxtəlif formaları nəzərdə tutulmuşdur. Qadim Mesopotomiyanın sosial-iqtisadi münasibətləri bu qanunlarla qaydaya salınmışdır. Bu qanunlar quldarlıq quruluşunu dövlətin və hakim sinfin (quldarların) mənafelərini və vətəndaşlarin mülkiyyətini qorumaq ehtiyacından yaranmışdır. Burada vətəndaşların mülkiyyəti möhkəm hüquqi qaydalarla qorunmuşdur və qulda mülkiyyət obyektinə çevrilmişdir. Qədim Misirdən fərqli olaraq burada yüksək səviyyədə mərkəzləşdirilmiş dövlət təsərrüfatı deyil, əsasən icma və icarə təsərrüfatları olmuşdur. Bu təsərrüfatlar naturaldan, daha çox əmtəə xarakteri daşımışdır. Əmtəə-pul münasibətləri və sələmçilik inkişaf etdikcə icma üzvlərinin bəziləri var-yoxdan çıxırdılar və qula çevrilirdilər. Bu isə sinfi mübarizəni gücləndirirdi. Ona görə də qanunda sələmçiliyi və borc quldarlığını məhdudlaşdıran və güclülərin zəifləri sıxışdırmaması üçün ijarə, muzdur adamlardan istifadə və sələmçilik qaydalarını əks etdirən fikir və maddələr öz əksini tapmışdır

4. İqtisadi fikir tarixinin predmetini, metodunu və strukturunu izah edin.(10)

Iqtisadi fikir tarixi cəmiyyətin iqtisadi həyatında və sosial sferasında baş verən dəyişikliklərlə əlaqədar iqtisadiyyatın birinin digəri ilə əvəz olunmasının qanunauyğunluqlarını və dövrləşmə prosesilə bağlı insanların davranış qaydalarının məntiqini öyrənir. Onun öyrənilməsinin metodoloji əsasını yeni iqtisad elminin mahiyyətinin daha dərindən mənimsənilməsi üçün keçmiş nəzəriyyələrin öyrənilməsi dialektikası təşkil edir. Bu baxımdan IFT ayrı-ayrı mərhələrdə iqtisadi ideyalar və baxışların, fikirlərin ümumi dinamikasını öyrənməklə yanaşı iqtisad elminin təşəkkülü və birinin digəri ilə əvəz olunmasının ümumi məntiqini öyrənir.

İqtisadi fikir tarixinin predmetinə həmçinin müxtəlif iqtisadi sistemlərin meydana gəlməsi, onların bir-birini əvəz etməsi və iqtisadi proseslərin bütöv şəkildə öyrənilməsi də daxildir. Bu baxımdan İqtisadi sistemlərin transformasiyaya uğraması, eləcə də təkamüllü iqtisadi inkişafa təkan verən cərəyanların,

məktəblərin və konsepsiyaların şərh olunması “İqtisadi fikir tarixi”nin əsas vəzifələrindəndir. Bu nəzəriyyələrin birinin digəri ilə əvəz olunması məntiqinin öyrənilməsi iqtisad elminin daha dərindən mənimsənilməsinə imkan yaradır.

Bütün elmlərdə olduğu kimi iqtisadi fikir tarixinin də predmeti onun metodologiyası ilə vəhdət təşkil edir. Metodologiya dedikdə, cəmiyyətin iqtisadi əsasını və iqtisadiyyatın təməl prinsiplərini təşkil edən hadisələrə müəyyən ümumi və fəlsəfi əsasdan yanaşma və tədqiqatda istifadə olunan üsul və vasitələrin məcmusu başa düşülür.

İqtisadçıların tədqiqatda istifadə etdikləri prinsip və üsullar əsasən: əsas olanın, birincinin, ilkin şərtin müəyyən olunması və çıxış nöqtəsinin seçilməsi, deduksiya və induksiya, abstrakdan konkretə və əksinə keçid, təhlil və sintez, nəzəri və praktiki cəhətdən yanaşma, mahiyyətin və təzahür formalarının ayrılıqda və vəhdət halında öyrənmək, səbəb-nəticə və funksional əlaqələrin öyrənilməsi, istehsal, bölgü, mübadilə, istehlak arasındakı əlaqəyə düz və əks istiqamətdən yanaşma, qeyri-tarixi, tarixi və sinfi yanaşma, kəmiyyət və keyfiyyat dəyişikliklərinin öyrənmək və s. İbarətdir.

İqtisad fikir tarixi va metodologiyası ilə tanışlıq göstərir ki, onda çoxlu yanaşmalar olmuşdur. İqtisad elminin tam tarixini əhatə edən, ayrı-ayrı iqtisadçıların, iqtisad elminin məktəblərinin və istiqamətlərinin istifadə etdikləri Əsas metodoloji yanaşmalar aşağıdakılar olmuşdur: empirik, empirik-pozitivist, subyektiv, subyektiv-idealist və subyektiv-psixoloji, rasionalist, dialektik- matiralist, tarixi vas. Metodoloji yanaşmaların çoxluğu, sosial-iqtisadi gerçəkliyin mürəkkəbliyi və onun dərk olunması çətinliyi, iqtisadi fəaliyyətin insanın digər fəaliyyətlərilə qarşılıqlı əlaqədə olması və iqtisadçıların şəxsi baxışları ilə şərtləndirmək olar.

Sturukturları:

1) Qədim dövrün iqtisadi fikir tarixi
2) Müasir dövrün iqtisadi fikir tarixi
3) Orta əsrlərdə şərqdə və avropada iqtisadi fikirlər

5. İqtisadi fikrin əsas nəzəriyyə və istiqamətlərini açıqlayın.(10)

İqtisadi fikir tarixinin dərindən öyrənilməsində metodoloji prinsiplərdən biri də iqtisad elminin əsas nəzəriyyə və konsepsiyalarının tarixi mərhələlər üzrə öyrənilməsindən ibarətdir. Çünki, Iqtisad elmi fikir varisliyi, tarixi ve 9 tenqidi tehlil yasasinda formalasmis, inkisaf edib ve tekminlesmisdir. Iqtisad elmi tarixi ve tenqidi tehlil uslubundan istifade olunmasi her bir iqtisadcinin 100 konsepsiyasinin mentiqi esaslandirmasi zeruretinden yaranmisdir. Belli oldugu kimi, iqtisdi fikir ve nezeriyyeler tarixen ilk once teserfatciliq fealiyyetin semereli teskili ve idare edilmesini , maddi ve maliyye saitlerinden semereli istifade olunmasi, emtee- pul munasibetlerinin izah etmesi zeruretinden yaradilmisdir. Lakin bu nezeriyeler cemiyyetin sosial- iqtisadi, intusional qurulusu ile qarsiliqli elaqede formalasib, inkisaf etdiyinden movcud siyasi- iqtisadi qurulusun hereketverici quvvesi olan hakim sosial tebeqenin meafeyini ifade etmisdir.

Iqtisad elmi tarixinde 20- ci esrin 20-30 – cu illeri xususi yer tutur. Bu iller iqtisadi fikrin inkisafinda donus dovru olmusdur. Beleki, iqtisad elminin muasir, simasini mueyyen eden istiqametler: Keynscilik, neoliberalizm, bu dovrde yaranmis ve instituasionalizme bir istiqamet kimi 20- ci esrin 20-30 – cu illerinde genis tessekul tapmisdir.

A.Smitin ve D.Rikardonun sisteminde de iqtisadi subyektin davranis istiqameti, 1- ci novbede onun sinifi, mexsuslugu ile mueyyen olunmusdur. Bele ki, A.Smit hesab edirki, insanlara oz xeyrini

maksimallasdirmaq cehdini reallasdira bilmesi, onun cemiyyetdeki, movqeyinden aslidir. Smite gore “maksimallasdirma davranisi” yalniz capitalist ucun mumkundur.

Beləliklə iqtisadi fikir tarixi iqtisad elminin tarixii kimi onun əsas prinsiplərinin formalaşmasının nəzəri və metodoloji əsaslarını ; - sərvətlərin və maddi nemətlərin artırılması yollarının müəyyən edilməsini;insanların mənafeyini təmin edən və qoruyan iqtisadi sistemlərin yaradılması və idarə olunmasını öyrənir.

6.Qədim Yunanıstanda iqtisadi fikirlərin yaranmasını göstərin və Ksenofont, Platon və Aristotelin iqtisadi baxışlarını izah edin.(10)

Yunanıstanda iqtisadi fikir özünün ən yüksək nöqtəsinə antik dövrdə (e.ə. V-IV əsrlərdə) Ksenofontun (e.a. 430-354), Platonun (e.ə. 424-347) və Aristotelin (e.ə. 384-322) əsərlərində çatmışdır. İqtisadiyyat sözünün ilk müəllifi olan Ksenofont «Ev təsərrüfatı» traktatında cəmiyyətdə əmək bölgüsü probleminin öyrənilməsinə böyük maraq göstərmişdir. O, natural təsərrüfatın qəti tərəfdarı olmaqla yanaşı o, pul təsərrüfatının (ticarətin) faydalılığını da inkar etməmişdir. «Ev təsərrüfatı» traktatında dəyərin (qiymətin) əşyaların faydalılığından asılı olması fikri öz əksini tapmışdır. Ksenofont iqtisadi inkişafın yolunu kənd təsərrüfatında - əkinçilikdə görmüşdür. Sərvətin istehlak dəyəri formasına diqqət yetirmişdir. Ona görə də o, təsərrüfat fəaliyyətinə istehlak dəyərlərinin yaradılması prosesi kimi baxmışdır. O, əmək bölgüsü ilə bazar arasında əlaqəni, əmək bölgüsünün dərəcəsinin bazarın miqyasından asılı olduğunu göstərmişdir. Pulun tədavül vasitəsi funksiyası ilə yanaşı, onun sərvət yığımına xidmət etdiyini qeyd etmisdir.O, əməyin əqli və fizikiyə, insanların azad və qula bölgüsünü təbii hesab etmiş, bununla da quldarlığa haqq qa- zandırmışdır. Onun iqtisadi platforması qul sahibliyinin və istehlakın kol- lektiv formasına yönəlmişdir. Qədim Yunanıstanın ictimai fikrinin görkəmli nümayəndəsi Platon ol- muşdu. Platonun baxışlar sistemində iqtisadi xarakterli problemlər <«<Dövlət» və «Qanunlar» əsərlərində öz əksini tapmışdı. O, bu əsərlərində ideal dövlət modelini və obyektiv idealizm sistemini yaratmışdır. Platon siniflərin mübarizəsini və əmlak bərabərsizliyini aradan qaldır- mağa cəhd göstərmişdir. O, insanların fərqli qabiliyyəti olduğundan və qeyri-bərabərliyi aradan qaldırmaq mümkün olmadığından ədaləti təmin etmək üçün hər bir kəsin təbii qabiliyyətinə uyğun olaraq pay alması fikrinin tərəfdarı olmuşdur. Platon əhalini üç qrupa bölmüşdü: dövləti idarə edən filosoflara, idarəetmə aparatını təşkil edən əsgərlərə vəl təsərrüfatla məşğul olan əkinçilərə, sənətkarlara və tacirlərə. O, ağır işləri yerinə yetirən qulları vatandaş saymamış, ona görə də onları heç bir təbəqəyə aid etməmişdir. Platonun proqramında filosoflar və əsgərlərxüsusi mülkiyyət hüququna malik olmurlar, onların istehlakı fərdi deyil, ictimai (kollektiv) xarakter daşıyır və dövlət tərəfindən təmin edilir.

Qədim dünyanın ən görkəmli elm zəkalarından biri Aristotel olmuşdur. Onun baxışları o vaxtlar mövjud olmuş bütün elm sahalarini əhatə etmiş, insan, camiyyət haqqında elm olan sosiologiyanın banilarindan biri olmuşdur. Onun sosial-iqtisadi baxışları «Nikomaxın etikası» və «Politka>> asarində dövlət quruluşuna baxmış, ailəni onun əsası kimi müəyyən etmişdi. Dövlətin mahiyyəti ümumi rifaha cəhd etmək və sinfi ziddiyyatlari aradan götürmək olmuşdur. Aristotel quldarlığı təbii, qulu isə danışan alat adlandırmışdı. O, natural quldarlıq təsərrüfatının mənafelərini müdafiə etmiş, iqtisadi xarakteristikasını vermiş, onun ehtiyacdan, iqtisadi zərurətdən yarandığını göstərmişdir. O, istehsalın və sərvətin əsasını və onun artırılmasının asas man beyini qulları taşkil etdiyini qeyd edir. Vatandaşların azad va qulla, onların əməyinin isə əqli və fiziki əməyə bölünməsini təbii hesab etmişdir. Qula gəlir gətirən emlak kimi baxmış və onun an zaruri mülkiyyət obyekti olduğunu qeyd etmişdir. IAristotel yaşadığı dövrün iqtisadi hadisə və proseslərin nəzəri cəhətdən dark edilməsinə və o zamankı camiyyətin iqtisadi qanunlarını tahlil etməyə çalışmışdır.

7. Qədim Romada iqtisadi fikirlərim formalaşmasını və Qrakxi, Katon, Varronun dəyər, mənfəət,qiymət, qul əməyinin və kənd təsərrüfatının təşkili haqqında fikirlərini əsaslandırın.(20)

Qədim dövrün iqtisadi fikri klassik quldarlıq quruluşunun tərəqqi etdiyi e.ə. II əsrdə, eləcə də eranızın III-V əsrlərində Qədim Romada inkişaf etmiş və başa çatmışdır. Qeyd etmək lazımdır ki, Qədim Romada xüsusi mülkiyyətçilərin hüquqlarının möhkəmləndirilməsi, azad adamlarla qullar arasındakı tərəfləri əks etdirən "XII cədvəlli qanunlar" deyilən əsasnamə öz əksini tapmışdır. Burada eyni zamanda borc sistemini tənzimləyən çox ciddi qanunlar da öz əksini tapmışdır. Həmçinin 125 ha-dan (500 yuqer) yuxarı torpaq sahəsini icarə etmək qadağan edilirdi.

Roma tarixində e.ə. 134-cü ildə Qrakx qardaşlarının torpaq islahatları sahəsindəki layihələri çox mühüm rol oynamışdır. Belə ki, dövlətdən torpaq icarəyə götürülməsinin həcmi ailədəki yetkin yaşlı oğlanların sayından asılı olaraq artırılırdı. Belə ki, onların ikisinə əlavə olaraq hər birinə 250 yuqer (62,5 ha) torpaq sahəsinin icarəyə verilməsinə icazə verilirdi

. Eramızdan II-I əsr əvvəl qədim Roma iqtisadiyyatında ciddi dəyişikliklər baş vermişdir.Xırda torpaq sahələri təmərküzləşməyə, iri torpaq sahibkarları meydana gəlməyə başlamışdı. Quldarlıq təsərrüfatına əsaslanan prinsiplərin formalaşması ilə yanaşı, muzdlu əməkdən istifadə olunması, təsərrüfatın şəhər tələbatına uyğun olaraq aparılması meylləri də güclənirdi. Belə şəraitdə quldarlıq təsərrüfatının səmərəli təşkili yeni iqtisadi fikirlərin meydana gəlməsinə səbəb oldu. Bu sahədə Mak Portsen Katonun (e.ə. 234-149) "Əkinçilik haqqında" traktını xüsusi qeyd etmək lazımdır.

Katon göstərirdi ki, əkinçiliklə məşğul olmaq, azad vətəndaşlar üçün ən ləyaqətli iş hesab olunmalıdır. Çünki "ən sadiq adamlar və ən məşhur əsgərlər" əkinçilər arasından çıxır. Əkinçilər "xalis gəlir" yaradanlardırNatural təsərrüfatın tərəfdarı olan Katon, eyni zamanda qeyd edirdi ki, əlavə nə əldə olunsa, hamısı satılmalıdır. Yaxşı mülkədar olmaq naminə əlavə hesab olunan və özünə lazım olmayanları satmalıdır. Katon mülkədarların qul əməyindən istifadə etmək qaydalarını da tövsiyə edirdi. Katon əkinçilikdən əldə edəcəyi səmərəni, həm əmək alətləri, həm də istehsal prosesi ilə əlaqələndirirdi. Mülk sahiblərinin əkinçilik işlərinin təqvim vaxtının və zəruri aqrotexniki qaydalarının yaxşı mənimsənilməsi tövsiyə edilirdi.

Qədim Roma iqtisadi fikir tarixində Mark Varron (116-27 e.ə.) kənd təsərrüfatı sahəsində irəli sürmüş ideyalarına görə xüsusi yer tutur. Varron qeyd edirdi ki, əkinçilər iki məqsədə doğru, faydalanmağa və zövq almağa can atmalıdırlar. Fayda, gəlir gətirməyi tələb edir. Zövq isə nə xoşdur, onu tələb edir Katondan fərqli olaraq, Varron, malikanələri təkcə şəhər tələbatı ilə deyil, nkənd yerlərinin tələbatı ilə də əlaqələndirməyə üstünlük verirdi. Lakin bunanbaxmayaraq, Varron quldarlıq təsərrüfatının natural xüsusiyyətlərindən kənarlaşa bilməmişdir. Onun fikrinə görə qullar arasında qabiliyyətliləri seçmək, onlara üstünlük vermək və qadın qullarla mükafatlandırmaq, onlarla öz ağaları arasındakı münasibətləri yaxşılaşdırmaq qulların təkrar istehsalına səbəb olar. Mövsümü kənd təsərrüfatı işlərində qul əməyinin məhdudluğunu görən Varron qeyd edirdi ki, belə şəraitdə muzdlu işçilərin əməyindən istifadə etmək lazımdır

8. Çində iqtisadi təlimi-"Təbii hüquq nəzəriyyəsi", onun təkamülü, Konfutsi, "Kuan Tsızı" traktatında sosial- iqtisadi baxışları izah edin(20)

Qədim Çinin iqtisadi fikrində çin mütəfəkkiri Komfutsi və kollektiv traktat olan "Quan Tsızı" mühüm yer tutur. Konfuysinin ideyaları, xüsusilə də onun tərəfindən deyilən əxlaqi etik normalar yarandığı vaxtdan Çinin ictimai həyatında həlledici əhəmiyyət kəsb etmişdkr və Konfutsiçilik Çin döblətinin ideologiyasına çevrilmişdir. Hətta hal hazırda ictimai ədəbiyyatlarda Qərbi Avropa siviliaziyası, şərq və şərq islam sivilizasiya ilə yanaşı konfutsi mədəniyyətli sivilizasiya da mövcuddur.

Çində iqtisadi fikir formalaşdığı vaxt ictimai əmək bölgüsünün inkişafı dərinləşmişdi və əmtəə pul münasibətləri inkişaf etmişdi. Buna əkinçi icma təsərrüfatı ilə yanaşı, xüsusi qul təsərrüfatının, sənətkarlğın, ticarətin mövcudluğu göstərir. “Quan tsızı” traktatı Qədim Çinin ictimai fikrinin əsas istiqamətlərinin sosial iqtisadi ideya və proqramlarının xüsusi şəkildə simtezidir. “Quan tsızı” traktatında sərvərin bərabər bölgüsü yolu ilə “dövlətin varlı və xalqın razı olması” və iqtisadiyyatın əmtəə qiymətlərinin tənzimlənməsi vasitəsilə sabitləşdirilməsi, natural təsərrüfatın öz başınalığı qorunması problemi diqqət mərkəzində olmuşdur. Traktatda öz dövrü üçün iqtisadiyyatın dövlət tənzimlənməsinin bütöv bir sistemi işlənib hazırlanmışdır. Onlar əmtəələrin və pulun qiymətlərinin əks istiqamətində hərəkət etdiyini, yəni əmtəələrin qiymətləri artdıqda pulun qiymətdən düşdüyünü qeyd etməklə yanaşı, iqtisadiyyatın sabitləşməsi üçün pul emissiyasının tənzimlənməsini təjlif etmişlər

Qədim Çinin ictimai fikrində sosial iqtisadi priseslərə təbii hüquq nəzəriyyəsi mövqeyindən yanaşma mövcud olmuşdur. Bu nəzəriyyəyə görə Allah dünyanın yalnız ilk səbəbkarıdır, ictimai həyatın hadisələri təbii qanunlara tabedir və təbii hüquqla yaradılmış vətəndaş qanunları ilə qorunur. Təbii hüquq nəzəriyyəsinin əsasını sosial, əxlaq və hüquq fəlsəfəsi təşkil etmişdir. İnsanların təbəqəyə bölgüsüünün Allah tərəfindən və təbii olduğunu göstərir. Onun baxışları qəbilə zadəganlığının mənafelərinə xidmət edirdi. O dövlətə böyük ailə kimi, dövlət başçısına isə “xalq atası” kimi baxmışdır. Sərvərin mənbəyini əməkdə görmüş, xalqın və dövlət başçısının sərvətinin əməklə artırılmasını mənəvi prinsiplərə uyğun saymışdır. Konfutsiya dövlərin yüksək mənəvi prinsiplər əsasında idarə edilməsini tövsiyə edir. Onun fikirincə, dövləti idarə edən şəxs ən mükəmməl adam olmalıdır. O dövlət başçısını xalqı əvvəlcə varlandırmağa, sonra isə onu tərbiyə etməyə, xərclərdə qənaətcil olmağa, insanların qayğısına qalmağa, sərvəton bərabər bölüşdürülməsinə, vergi ağırlığını yüngülləşdirməyə çağırmış və ondan bunlara əməl etməyi tələb etmişdir. Konfutsi sərvətim çoxaldılmasının yolunu xalqın çox işləməsində və az istehlak etməsimdə görürdü.

9. Orta əsrlərdə iqtisadi biliklərin yaranması və inkişaf istiqamətlərini əsaslandırın.(5)

Bütün bu deyilənlərə əsasən bir daha qeyd etməliyik ki, qədim dövrlərdə olduğu kimi orta əsrlərdə də iqtisadi fikir və ideyalar cəmiyyətin müəyyən tarixi inkişafının, onun iqtisadi şəraitinin ifadəsi kimi meydana çıxır, formalaşır və təkamül edir. Məlumdur ki, Azərbaycan xalqının iqtisadi fikir və təsəvvürləri əzəldən başlasa da o orta əsrlərdə, xüsusən də XI-XIV əsrlərdə çox zəngin olmuş və təkamül etmişdir Artıq XII əsrdə Azərbaycanda iqtisadi fikir və ideyalar özünün yüksək inkişaf səviyyəsinə çatmışdır.1 N.Gəncəvi öz yüksək bilik səviyyəsi və yiyələndiyi dillərin vasitəsilə Şərqin böyük mütəfəkkirlərinin: Əl Fərabi, İbn Sina, Biruni, və başqa görkəmli alimlərin əsərləri ilə tanış olmuş, antik, hind və yunan fəlsəfəsini və mədəniyyəti mənimsəmişdir. Buna görə də o dahi şair olmaqla yanaşı öz dövrünə qədər və öz zəmanəsində mövcud olan əsas bilik sahələrinə: tarix, fəlsəfə, məntiq, ilahiyyət, astranomiya, kimya, fizika və s. dərindən bələd olan və bunlardan bəşəriyyətin faydalanması üçün yollar arayan böyük mütəfəkkir alimdir.

Orta asrlarda Qarb mutafakkirlari antik dünya ilə müqayisədə öz dövrləri üçün dahilik va orijinallıq göstara va qadim yunan mutafakkirlari tərəfindən irəli sürülmüş dəyərli iqtisadi müddəaları inkişaf etdirib zanginləşdirə bilmədiklari halda, bunu Şərq mutafakkirlari-N.Tusi və İbn- Xaldun edə bilmişdir. Orta əsrlərdə N.Tusidən və İbn-Xaldundan başqa heç kim iqtisadi məsələlərə aid əsər yazmamışdır. Bu dövrdə din xadimi olmayan, dünyəvi olan feodallar deyil, əsasən din xadimləri və dini institutların feodalları Əsərlər yazmışlar. İqtisadi məsələlər bu əsərlərdə şərh olun-muşdur. Orta əsrlərin iqtisadi fikri yeni iqtisadi münasibətlərin təsiri altında formalaşmışdır. Bu dövrdə natural xarakter daşyan feodal iqtisadiyyatı mövcud olmuşdur. Feodal iqtisadiyyatının əsasını torpaq üzərində feodal mülkiyyəti, onların iri təsərrüfatları, kəndli əkinçi icma və sənətkarlıq təsərrüfatları, şəxsi asılılıq münasibətləri, qeyri-iqtisadi məcburiyyət təşkil etmişdir. Bu dövrdə dini ideologiya hökmranlıq

etdiyindən iqtisadi fikrə dini institutlar və din xadimləri böyük tasir etmişdir. İqtisadi xarakterli problemlər haqqında fikirlər yalnız mövcud olmuş dinlərin müqəddəs kitablanında və din xadimlərinin əsərlərində öz aksini tapmışdır. Bu cür hal ham Şərqdə və həm də Qərbdə mövcud olmuşdur. Bu vaxtı din rasmi dövlət ideologiyasına çevrilmiş və dövlətlər dini dövlətlər olmuşdur. Din bəşəriyyətin, həmçinin insanın Allah tərəfindən yaradıldığını, Allaha inanmağı və axirət dünyasının mövcudluğunun təbliğidir. Din əqidə ol maqla yanaşı həm də sosial-iqtisadi münasibətlərin, insanların bütün davranışının və fəaliyyətinin Allah tərəfindən müəyyən edilmiş qayda, norma və şəriyyət qanunları ilə nizamlanması və tənzimlənməsi sistemidir. Bütün bunlar isə onu göstərir ki, orta əsrlərdə hadisə və proseslərə sxolastik yanaşma olmuş və iqtisadi biliklar teleoloji xarakter daşımışdır.

10. Şərgin iqtisadi fikirlərinin formalaşması və ona islamın təsirinin izahını verin(5)

Orta əsrin iqtisadi fikirlərini öyrənərkən, Şərqin, o cümlədən Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış böyük filosof və mütəfəkkirlərinin əsərlərində cəmiyyətin iqtisadi quruluşu və onun inkişaf qanunları haqqında irəli sürdükləri dəyərli nəzəri fikirlərlə qarşılaşırıq. Məsələn, böyük Şərqin dünya şöhrətli mütəfəkkirlərindən Əl Fərabi (870 950), İbn Sina (980-1037), Abu Reyhan Biruni (XI əsr), Nizami Gəncəvi (1141-1209), Nəsirəddin Tusi (1201-1274), İbn Həldun (1334-1406) bütün bəşər mədəniyyətinə böyük elmi töhfələr vermişlər. Bunların iqtisadifikir sahəsində də böyük xidmətləri olmuşdur.

Orta esrlerde N. Tusi ve Ibn Xeldundan basqa hec kim iqtisadi movzuda esreler yazmamisdir. Bu dovrde din xadimleri olmayan, dunyevi olan feodallar deyil, esasen din xadimleri ve dini instituasiyalarin feodallari eserler yazmislar. Iqtisadi meseleler bu eserlerde serh olunmusdur.

Orta əsrlərin iqtisadi fikri yeni iqtisadi münasibətlərin təsiri altında formalaşmışdır. Bu dövrdə təbii xarakter daşıyan feodal təsərrüfatı mövcud idi. Feodal təsərrüfatının əsasını torpağa, onların iri təsərrüfatlarına, kənd icmalarına və sənaye təsərrüfatlarına, şəxsi kapitala olan feodal mülkiyyəti gender münasibətləri qeyri-iqtisadi öhdəlik təşkil edirdi Erkən orta əsrlərdə selem vermək Aristoteldə olduğu kimi müqəddəs dini kitablarda (İncil və Qurani-Kərimdə) qeyri-təbii hesab edilir və pislənirdi. Bu kitablarda materialist baxışlar inkar edilərək mənəvi məsələlər dairənin təhlilinə qoyulur və ruh fəlsəfəsi əsas götürülür. Eyni zamanda bu kitablarda sərvətin və mülkün əsası və mənbəyi kimi əmək göstərilir.

İqtisadi təlimlər tarixinin bir elm kimi formalaşmasında Şərq iqtisadi fikrinin müstəsna dərəcəli təsiri olmuşdur. Bu hər şeydən əvvəl Şərqdə, xüsusən İlkin Ərəb Xilafəti dövlətində İslam dininin meydana gəlməsi (610-632-ci illər) ilə yeni iqtisadi münasibətlərin və davranış qaydalarının meydana gəlməsi ilə əlaqədar olmuşdur. İslamın iqtisadi problemlərə öz baxışları var əksinə, Allahdan Məhəmməd peyğəmbərə (s) nazil olan müqəddəs kitab (570-632) “Quran-Kərim” kitabında və Həzrət Məhəmmədin (s) hədislərində tapmışdır. Ölkəni İslam iqtisadi ideyaları əsasında idarə etmək, əhaliyə vermək torpağın əkilməsi, dövlətin zənginləşdirilməsi, xüsusi mülkiyyətin qorunması, nemətlərin ədalətli bölüşdürülməsi, onlardan qənaətlə istifadə edilməsi, əmtəə-pul münasibətlərinin və ticarətin tənzimlənməsi və s. suallar qalır. Quranda insanların təsərrüfat fəaliyyətində azadlıq, ədalət, bərabərlik, ədalət və halallıq prinsipi xüsusi yer tutur. Birincisi, 'adam azadlıqdan xüsusi bəhs edilir və göstərilir ki, Allah insanı milliyyətindən, rəngindən, cinsindən asılı olmayaraq bərabər yaratmışdır. Qulu, uşağı azad et, Onun insan hüquqlarının bərpası mənəvi davranış kodeksinin bir hissəsidir Xüsusi olan və böyük mükafatı olan yaxşı işlərdəndir.

Həmçinin göstərilir ki, İnsanların təbii sərvətlərə olan münasibətləri bərabərdir, orada hasil olunan nemətlər bütövlükdə xalqa, millətə məxsusdur. Mütləq mənada azad olan insan qarşılıqlı fəaliyyət nəticəsində bir-birilə hər cür qarşılıqlı münasibətdə bərabər şəkilli və ədalətli davranışa əsaslanmalıdır. Deməli, insanlar qabiliyyətləri daxilində malik olduqlarınemət və sərvətlərin xüsusi

mülkiyyətçisinə çevrilməklə, ondan yalnız istifadə edə bilər və sərəncam verə bilər. Eyni zamanda, əldə olunan nemətlərdən qohum-əqrabaya, yoxsullara, pulu qurtarıb yolda qalan müsafirlərə haqqın verilməsi zarurəti göstərilir. Lakin bununla yanaşı, har cür israfçılıqdan uzaq olmaq tövsiyə edir. İslam iqtisadi dayari kimi könüllü olaraq öz ehtiyacından artıq qalanını vermək insanı en yüksek ali davranışa malik olan və fərdi monaviyyatı ucaldan prinsip kimi dəyərləndirilir

11. İslamda ticarət, vergi sistemi, xüsusi mülkiyyət və azad sahibkarlıq məsələlərinin təsnifatını verin.(5)

Göstərilir ki, Insanlarım təbii sərvətlərə olan münasibətləri bərabərdir, orada hasil olunan nematlar bütövlükdə xalqa, millata maxsusdur. Mütləq manada azad olan insan qarşılıqlı fəaliyyat nəticəsində bir-birilə hər cür qarşılıqlı münasibətda beraber şəkilli və ədalətli davranışa əsaslanmalıdır. Deməli, insanlar qabiliyyətləri daxilində malik olduqlari nemət və sarvatlarin xüsusi mülkiyyatçisinə çevrilmakla, ondan yalnız istifadə edə bilər və sərəncam verə bilər. Eyni zamanda, əldə olunan nemətlərdən qohum-əqrabaya, yoxsullara, pulu qurtarıb yolda qalan müsafirlərə haqqın verilməsi zərurəti göstərilir. Lakin bununla yanaşı, hər cür israfçı- hiqdan uzaq olmaq tövsiyə edir. İslam iqtisadi dayari kimi könüllü olaraq öz ehtiyacından artıq qalanını vermək insanı ən yüksək ali davranışa malik olan və fərdi mənəviyyatı ucaldan prinsip kimi dəyərləndirilir I «Qurani-Kərim»də yer üzərində nə varsa hamısının Allaha məxsusluğu, insanın isə Allahın nümayəndəsi kimi bütün resurslara sahib olduğundan, onları işlədərkən onun Allahın buyruğuna (hökmünə) əməl etməsi; torpaq üzərin- də xüsusi mülkiyyət hüququnun ola bilməməsi, onun Allaha məxsusluğu, təbii resursların hamıya məxsusluğu, mal-qara üzərində xüsusi mülkiyyət hüququnun olması göstərilir. «Qurani-Kərim»də həmçinin Allah insanı yerdə öz nümayəndəsi kimi yer kürəsini inkişaf etdirmək və canlandırmaq məqsədilə yaratdığı qeyd olunur. Əmlak və mülkiyyət, əmlakın əldə olunması və ondan faydalı istifadə olunması, əmlak toxunulmazlığı əsas götürülür və əmlakın bölgüsü islamda vərəsəlik hüququ vasitəsilə çox dəqiq həyata keçirilir. Onu da qeyd etmək lazımdır ki, islam dininin yayılmasında xariji tijarət əlaqələri mühüm rol oynamışdır. «Qurani-Kərim»də tijarətə xüsusi diqqət verilməsinə və tijarət mənfəətinə haqq qazandırılmasına baxmayaraq, ondan da digər fəaliyyət növləri ilə bərabər vergi tutulması göstərilir. Ticarətin və pulun islam iqtisadiyyatında oynadığı rolun əhəmiyyəti barədə danışmağa xüsusi ehtiyac yoxdur. Məlumdur ki, İslamın meydana gəlməsi və formalaşması bilavasitə ticarət əlaqələrinin fasiləsiz olaraq getdiyi dövrə təsadüf edir. Təsadüfi deyildir ki, XYIII əsrdən başlayaraq Qərb ölkələrinin sürətli iqtisadi inkişafa nail olmaları məhz müəyyən fəaliyyət sferasında ixtisaslaşmalar hesabına baş vermişdir. Qərb ölkələri buna nail olmuş və dünyanın inkişaf etməkdə olan ölkələri də bu təcrübədən istifadə edə bilmişlər. Lakin müsəlman Şərq ölkələrində yenilikçiliyin, təşkilatçılığın və tə- şəbbüskarlığın tətbiq dairəsi daima məhdudlaşdırılmışdır. Ona görə də müsəl- man ölkələrində ticarət ona xas olan inkişaf meylini üzə çıxara bilməmişdir. Pulun sələmə, faizə, verilməsi Qurani-Kərimdə qətiyyətlə pislənməklə ya- naşı, o müsəlmanın iqtisadi davranış qaydaları üçün qadağan hesab olunur. Göstərilir ki, Qızıl və gümüş, eləcə də valyuta və kağız pulların dəfinə kimi sax- lanılması, sələmə verilməsi günah olmaqla yanaşı, onun sahibinin bir sıra fəaliyyətini məhdudlaşdırır. Digər bir jəhət isə ondan ibarətdir ki, təbii suvarmaya əsaslanan, maşınlı texnikadan istifadə olunmadan, az sayda muzdlu işçi tətbiq olunan primitiv əkinçilik üçün zəkat əldə olunmuş məhsulun onda biri, irriqasiya sisteminə, maşınlı texnikaya və muzdlu əməyə əsaslanan əkinçilik üçün isə iyirmidə biri qədər tutulur. Bu islam vergi sisteminin stimullaşdırıcı cəhətidir. İslamda qənimətdən, qazanjdan və gəlirlərdən tutulmanın bir növü də xümsdür. Bu əsasən müharibədən əldə edilən qənimətin, torpağın, əmlakın və təbii sərvətlərdən əldə olunan gəlirin müəyyən hissəsinin (beşdə birinin) Peyğəmbərə (s.ə.s.) və onun yaxın qohum və əqrəbasına çatan hissəsidir. Xümsün verilməsi qaydaları müəyyənləşdirilərkən, şəriət və əsasən gəlirin artim prosesi nəzərdə tutulur. Qazanc mənfəətindən vergi, əsasən, şəxsin ticarətdən, sənətkarlıqdan və s. fəaliyyətdən əldə etdiyi gəlirdən ailəsinin illik xərcini çıxdıqdan sonra yerdə qalan hissədən beşdə birini əhatə edir. Əgər hər hərhansı

şəxsin xərclərini başqaları ödəyirsə, o halda həmin hissə əldə olunan galirdan çıxılaraq xüms hesablanır. «Qurani-Karim»da orucluğun qurtarması ilə alaqadar imkanı olanların imkansızlara verdikləri ianə- fitra (sadaqa), müsəlman olmayan chalidon tutulan can vergisi -cizya mehsulun onda bir hissasini təşkil edan torpaq vergisi - xərac və üşr adlanır.

12. Nizami Gəncəvinin (xəmsəsi əsasında) sosial-iqtisadi fikirləri izah edin(5)

Dahi mütəfəkkir Nizaminin məşhur « Xəmsə » əsərində İqtisadi fikir və ideyaları , onun cəmiyyətin ictimai-iqtisadi münasibətləri haqqında təsəvvürləri humanizm və demokratizm prinsiplərinə əsaslanmışdır. Burada ən çox feodal mülkiyyət forması, ondan doğan zidiyyətlər, vergi sisteminin ağırlığı və onun azaldılmasının zəruriliyi əks olunmuşdur. Ədalət və bərabərsizliyə əsaslanan bölgü sistemi onun bütün ideyasının məğzini təşkil etmişdir.

N.Gəncəvinin əsərlərində insan, onun dünyada yeri və rolu, insanın insana, insanın cəmiyyətə və onu əhatə edən təbii mühitə münasibəti, cəmiyyətin ədalət və təbii qanunlar əsasında qurulması və idarə edilməsi kimi həyati məsələlər əsas yer tutur. N.Gəncəvinin «Xəmsə»sindəki iqtisadi fikir və ideyalar yaşadığı dövrün ictimai-iqtisadi quruluşunun, ən çox feo- dalizm dövrünün tənqidi təhlili və ifadəsi kimi meydana çıxmışdır. Onun nəzərdə tutduğu utopik cəmiyyətdə yüksək inkişaf etmiş əkinçilik bağçılıq, maldarlıq və bütövlükdə sərvət bolluğu olmalıdır. Hər kəs öz bacarığına görə ümuminin xeyri üçün çalışır, cəmiyyət isə hamının qayğısını çəkir.

13.N.Tusinin əmək, dəyər, əmək bölgüsü, pul, ekvivalent mübadilə haqqında fikirlərini izah edin(10)

N.Tusi sərvətin əməklə yarandığını, əməyin hər şeydən qiymətli olduğunu, əməyin insan növünün yaşaması üçün mühüm şərt olduğunu sübut etməyə çalışmışdır. O, yazır ki, “dünyanın nizam-intizamı və məişət nizamı icma ilə birlikdə yaradılmışdır, insan növü icma olmadan, icma köməksiz, camaat isə yardımsız mövcud ola bilməz”. N.Tusi hər bir insanın əməyinə görə qiymət verilməsini ədalətli hesab edir və onun əməyi cəmiyyətdə ən yaxşı hörmət və mükafat ölçüsüdür. O, dövlət müavinətlərindən azad edilənləri, vergisiz gəlir əldə edənləri, xalqın gəliri ilə yaşayanları lənətləyib. O, insanı sosial varlıq, ailəni isə cəmiyyətin səthi kimi görürdü.Sosial-iqtisadi mülahizələr sistemində N.Tusinin yamaq və onun cəmiyyətdəki rolu, sosial yamaq bölgüsü, pulun mənşəyi və rolu, ekvivalent mübadilə, cəmiyyətin inkişafının iqtisadi əsasları haqqında fikirlərinin xüsusi yer. O, araşdırdığı məsələlərin çox konkret təhlilini vermiş, nəzəriyyə ilə praktikanı birləşdirə bilmişdir. Onu daha çox maliyyə-vergi sisteminin idarə olunması və dövlət (ölkə) siyasəti maraqlandırırdı. Onun şərhləri ümumidir.i yarışçı aparır. Tusinin sosial-iqtisadi qayğıları onun fəlsəfi və əxlaqi baxışları ilə sıx bağlı idi.

14.N.Tusinin dövlətin idarə olunması, maliyyə-vergi sistemi haqqında fikirlərini açıqlayın.(10)

N.Tusinin maliyyə və maliyyə ilə bağlı fikirləri ilə tanışlıq onun qədim Çin və 100-cü illərin maliyyə və maliyyə sistemi ilə yaxından tanış olması deməkdir. Böyük Böyük Böyük Böyük Böyük Payı Əməl var-yoh. Sarvyatini Artyran Vya Yulkyanın iqtisadi inkişafını stimullaşdırmaq məqsədi daşıyır. Onun maliyyə və vergi göstəriciləri bütün sistemi istehsal və bölgü sisteminə uyğunlaşdırır. Bunu onun yamaq işi (praktikilər) təsdiqləyir. Onun təklifləri yaşlı və ya gənclərdən toplanmış məlumatlara əsaslanır.

İnsanların sayının azaldılması, yaxınlıqdakı lampaların, istehsalçıların və ya ticarətçilərin vəziyyətinin yaxşılaşdırılması, dövlət büdcəsinin birbaşa və rasional formalaşdırılması, dövlət büdcəsinin təkmilləşdirilməsi larndian çox olmaq üçün hazırlanmışdır. Ah, iman obyekti yakinləri, tacirləri, şeyvandarları təyin etdi. Mövzunun akademik və ya korporativ varisləri daxil deyil. Onun təkliflərinin qanununda veeriqoim sisteminin myarkyazlyashdiril-myasi vya mtsstyaryaggi inanclar sisteminin

tyatbig var. O, fiskal aparatdan vergiçiləri müşayiət edən silahlı dəstələrin və müavinlərin saxlanması və onlara yemək verilməsi sistemini ləğv etməyi, ölkənin bütün gəlirlərini xəzinəyə köçürməyi, bütün məmurların xidmətlərinə uyğun olaraq haqqını xəzinədən almağı təklif etdi. N.Tusi şəkər qamışının drenaj sistemini torpağın münbitliyindən və ya mövcudluğundan, çeşidindən asılı olaraq bitkinin su udma qabiliyyətindən fərqləndirməyi təklif edir. Məsələn, zəngin və ikinci kurs tələbələrinin onda biri Qyadar inancı, iyirmi bir və iyirmi bir kasıbı isə Qyadar inancı, yəni "uşr" yudyamyalıdır. Yaxın plana uyğun olmayan torpaq saxiyadan yığılmır. İcarəyə götürən yaşlı şəxs tələb olunan sığortanı təmin edərsə və ya yaşlının artıq bu sığortası yoxdursa, kirayədən imtina edilir. N.Tusi Tatsirlyari varlı tyabyaqyaya və ya onların Caninchilyar nisbyatyan chokhını məhdudlaşdırır, inadkar yudyamı syanyatkarları qeyd edir.

N.Tusi istehsalçılar arasındakı əmək məhsullarının mübadiləsinə bərabər dəyərli insan işlərinin mübadiləsi kimi baxmış, bununla da o, mübadilənin ekvivalentliyi haqqında fikir söyləmiş olur. O, cəmiyyətdə insanlar arasında əmək bölgüsünün mövcud olduğundan onların bir-birinə xidmət, kömək etməsini qeyd etmişdİR. N.Tusi mübadilə dəyərinə əsasən pul formasında baxmışdı. Pulun ümu- mi dəyər ölçüsü rolunu yerinə yetirdiyini və onun əlverişli tədavül vasitəsi olduğunu qeyd etmişdir. Tusi də Aristotel kimi əmtəələri pul ölçülən etməsi fikrini söyləyir. Pul yığımına mənfi münasibət göstərmiş və qiyməti istehlakçı mövqeyindən və faydalılıq nöqteyi nəzərdən öyrənmişdir. Bu cür yanaşma N.Tusi marjinalist ideyaları da qabaqlamış olur.

15. İbn-Xəldunun sosial-iqtisadi görüşlərini izah edin.(10)

İbn-Xaldun cəmiyyətin ictimai-iqtisadi hadisələrini tarixi konteksdən, yani dövrün siyasi və ictimai-iqtisadi həyat şəraiti əsasından öyrənmişdir. O, cəmiyyətin inkişafına təbii tarixi proses kimi yanaşmışdır. Tarix fəlsəfəsinin banisi olan İbn-Xəldun tarixi proseslərin əsasına <<dini rəvayətləri» deyil, cəmiyyətin inkişafını qoymuşdur. İlk dəfə olaraq o, cəmiyyətin yaranmasını və keçdiyi tarixi inkişaf mərhələlərini iqtisadi səbəb və amillər əsasından, onu insanın yaşadığı və fəaliyyət göstərdiyi iqlim və təbii coğrafi mühitin təsiri altında baş verən bir proses kimi tədqiq edib öyrənmişdir. İbn-Xaldun insanların həyat tərzində olan fərqin yalnız onların yaşayış vasitələrini əldə etməsi üsulunun fərqli olmasından asılı olduğunu söyləmişdir. O, ilk dəfə olaraq iqlim və təbii şəraitlərin cəmiyyətlərin istehsal ölçüsünə və inkişaf səviyyəsinə təsir etdiyini qeyd etmişdir. İnsan ehtiyajının ödənilməsini iqtisadiyyatın əsas problemi hesab etmişdir. İctimai həyata İbn-Xaldun insanların birgə əmək, istehsal fəaliyyəti kimi baxmışdır və jəmiyyətin inkişafının hərəkətverici qüvvəsinin insanın iqtisadi (maddi) ehtiyacının olduğunu qeyd etmişdir. O, Aristotel və Şarq mütafakkirlari Mohammad al-Farabi və Mahammad al-Qazalı (1058- 1111)kimi iqtisadi ehtiyaç üzündan insanların camiyyət halında yaşamağa, birgə istehsal faaliyyətinə və bir-birinə xidmət etməyə möhtac olması fikrini irəli sürmüşdür.

İbn-Xəldunun "Müqəddimə" əsəri ilə tanışlıq göstərir ki,o, özündən əvvəl və dövründə yaşamış Şərq, ərəb və yunan mütəfəkkirlərinin yaradıcılığı ilə yaxından tanış olmuş və burada onların cəmiyyətin sosial-iqtisadi həyatı haqqındakı fikirlərini ümumiləşdirərək onlar haqqında öz fikrini formalaşdırmışdır. İbn-Xəldunun cəmiyyət, onun inkişaf mərhələləri, ehtiyac (tələb), əmək bölgüsü, əmək və onun istehsalda rolu, əmək-dəyər nəzəriyyəsi, istehlak dəyəri, ticarət fəaliyyəti, tələb-təklif və rəqabət, qiymət, pul, vergi yükü və dövlətin iqtisadi funksiyaları və s. Haqqında fikirləri olduqca orijinal olmuşdur. Onun tədqiqat üsulu da orijinallıq təşkil edir. Bu orijinallıq ondan ibarətdir ki, o, təfəkkürün elmi abstraksiya, deduktiv və induktiv metodlarını iqtisadi hadisə və proseslərin tədqiqinə tətbiq edə bilmişdir. Bununla da o, iqtisadi hadisələrin mahiyyətini öyrəndi. Bu, onun elmi xidməti hesab edilməlidir. A.Həsənov yazır ki,"İbn-Xaldunun ən böyük elmi xidməti onda özünü göstərir ki, o, cəmiyyətin ictimai-iqtisadi inkişafına, dövrünün iqtisadi-siyasi münasibətlərinə yeni nəzərlə, yeni metodla yanaşmaq və tədqiq etmək üsulunu tapmış,təsvirçilik və ehkamçılıqdan daha çox

uzaqlaşmağa nail olmuşdur.”Amma təəssüflə qeyd olunmalıdır ki,onun bu xidməti obyektiv və subyektiv səbəblərdən Qərb və Marksist ədəbiyyatlarında uzun müddət lazımınca qiymətləndirilməmiş və sovet dövrünün marksist ədəbiyyatında elmi abstraksiya metodunun tətbiqi ilə hadisələrin mahiyyətinin öyrənilməsi klassik və marksist məktəblərinin və onların nümayəndələrinin elmi xidməti hesab edilmişdir.

16.Tarixin dövrləşməsinin, ticarət azadlığının və vergi siyasətinin İbn-Xəldun tərəfindən şərhini əsaslandırın.(10)

Tarixin dövrləşməsi

İbn-Həldunun xidmətlərindən biri də ondan ibarətdir ki, o ilk dəfə olaraq tarixin dövrləşməsini vermişdir.O, cəmiyyətin öz dövrünə(XIV) qədər keçdiyi təbii-tarixi inkişaf prosesini araşdırmış və cəmiyyəti öz inkişafında üç mərhələdən:köçərilik,oturaq həyat və mədəniyyət (şəhər) mərhələlərindən keçdiyini göstərmişdir.İbn-Həldun köçəriliyi insan cəmiyyətinin ilk ictimai forması saymış və bütün insanların köçərilik həyatı keçirdiyini söyləmişdir.O, yazır ki, “Köçərilik mədəni və şəhər həyatının əslidir və bütün yerləşik həyat yaşamasından öncə yaşadıqları və keçdikləri bir dövrdür.”

İbn-Həldun cəmiyyətlərin köçərilikdən oturaq həyata keçmələri ilə istehsal üsulunda baş verən dəyişiklikləri və iqtisadi inkişafın tərəqqisini elmi əsaslarla göstərə bilmişdir. O, köçərilikdən oturaq həyata keçidi, şəhərlərin yaranmasını, mədəniyyətlərin strukturunu və tarix boyunca inkişafını, istehsalın öl- çüsü və miqyası, yeni istehsal alətlərinin yaranması, onun sənət və sənətkarlı- ğın yüksək dərəcədə təkmilləşməsi ilə əlaqələndirmişdir.

Ticarət azadlığı

İbn-Həldun ticarət azadlığını müdafiə etmişdir. Əgər A.Smit iqtisadiyyata dövlət müdaxiləsinin, dövlət inhisarçılığının əleyhinə və azad rəqabət və ticarət azadlığının leyhinə XVIII əsrdə olmuşsa, bunu İbn-Həldun XIV əsrdə etmişdir. O, dövlətin ticarətlə məşğul olmasına qarşı çıxır, dövlətin və dövlət adamlarının ticarətlə məşğul olmasını iqtisadiyyata müdaxilə kimi qiymətləndirir və onun inhisarçılığa yol açdığını qeyd edir. İbn-Xəldun dövlətin və dövlət adamlarının ticarət fəaliyyətilə məşğul olmasını həm dövlət və həm də cəmiyyət üçün zərərli hesab edir. O, göstərir ki, bu halda cəmiyyətin sosial ahəngi pozulur, azad rəqabət mübarizəsi sönür və dövlət adamlarının əxlaqının pozulmasına səbəb olur. Çünki mal alımında kimsə dövlətlə rəqabət apara bilmir, satışda isə dövlət çox miqdarda malı bazarda satdığından və istədiyi qiyməti alıcılara diqtə etmə güjünə malik olduğundan bazar qayda və qanunları, iqtisadi tarazlığın təbii düzəni pozulur

Vergi siyasəti

İbn-Haldun iqtisadiyyatın ümumi tənəzzülünə və ictimai həyatın durğun- luğuna səbəb olan vergi siyasətinə qarşı çıxış etmişdir. O, vergi yükünün artırılmasını, yeni vergi və rüsum növlərinin tətbiqini iqtisadiyyata dövlətin müdaxiləsi kimi qiymətləndirmişdir. İbn-Haldun vergi yükünü artırmaqla vergi gəlirlərinin artmaycağını, əksinə azalmasını söyləyir. İbn-Həldunun fikrinə görə vergi yükü artdıqca, dolayısı ilə istehsal azalır, istehsalın azalması da vergi bazasının və nəticədə dövlətin gəlirlərinin aşağı düşməsinə səbəb olur. Bu fikri ilə İbn-Həldun təklif nəzəriyyəsinin (XX əsrin 70-ci illəri) banisi A.Lafferi qabaqlamış olur. İbn-Haldun göstərir ki, vergi yükü artdıqca, vətəndaşların çalışma və qazanmaq arzuları azalır, bazarlar kasıblaşır, qiymətlər yüksəlir, çalışmaq marağı və təşəbbüs cəhdi yox olur. Bütün bunların nəticəsində isə iqtisadi fəaliyyət zəifləyir və istehsalın səviyyəsi aşağı düşür, son nəticədə cəmiyyət və dövlət iflasa uğrayır. O, yazır ki, «İnsanların mallarını zülm yolu ilə əllərindən almaq, onların mal və sərvət qazanmaq sahəsindəki əməl və ümidlərini qırar. Çünki mal və qazancları

əllərindən alınan bu adamlar mallarının zorla əllərindən alındığını bildikləri üçün, para qazanmaq və sərvət əldə etmək üçün çalışmağı buraxarlar. Əhali qazancla təmin olunmadığından, çalışmaqdan çəkinər. Nəticədə əmin-amanlıq pozular, bazarlarda durğunluq başlayar, iqtisadiyyatın durumu alt-üst olar. Əhali dolanmaq üçün zülmətlərə məruz qaldığı ölkədən qazanc əldə etmək məqsədilə digər ölkələrə axışar. Bunun nəticəsində o ölkənin nüfuzu azalar, yurd boşalar, şəhərlər və bölgələr xarabazara çevrilər. Beləliklə, də cəmiyyətin tənəzzülü ilə birlikdə dövlət və hakimiyyət də tənəzzülə uğrayar, çünki onlar da ictimai həyatın formaları olmaq etibarı ilə özləri üçün zəruri olan materiyanın məhvi ilə məhvə uğrayar>>.Bütün bunları nəzərə alaraq İbn-Həldun vergi yükünün azaldılmasını məqsədəuyğun sayır.

17. Sxolastika anlayışının məzmununu və onun mərhələlərini açıqlayın(5)

Sxolastika (yunanca"schole" – elmi söhbət, məktəb) – dini fəlsəfə tipi. Hərfi mənada "məktəb fəlsəfəsi" deməkdir. Orta əsrlər dövrü üçün xarakterikdir. Sxolastlar xristianlıq dini etiqadını rasionallıqla əsaslandırmağa və sistemləşdirmək niyyətində idilər. Bunun üçün isə onlar antik filosofların ideyalarından istifadə edirdilər. Teologiyaya üstünlük vermək, ehkamçı ilkin şərtləri rasionalist metodika ilə birləşdirmək və formal məntiq problemlərinə maraq sxolastikanın səciyyəvi cəhətləridir. Orta əsrlərdə ən çox Qərbi Avropada inkişaf etmişdir.Sxolastikanı kökləri son antik fəlsəfəsinə, xüsusilə Proklın görüşlərinə gedib çıxır.

Sxolatism üç dövrə bölünür. Erkən sxolastika,Orta sxolastika və ya Klassik sxolastika,Müasir sxolastika

Sksolastik düşüncəni 800 illə 1500 il arasında 3 əsas dövrə bölmək olar.İlk dövr 800-1200 dövrünü kapsayan erkən sxolastik dövrdür.1200-1300 dövr ikinci dövrdür ki, bu da sxolastik təfəkkürün bir qədər böyük inkişafını və yetkinləşməsini göstərir.Demək olar ki, Son Sxosolastik dövr 1300-1500-cü illəri əhatə edir

Erkən sxolastikaya-(IX-XII)neoplatonizmin təsiri olmuşdur.(Kenterberili Anselm,İbn Sina,İbn Rüşd,Akvinalı Foma)

Neoplatonízm, yeni-platonçuluq III-VI yüzilliklərdə Platon və Aristotelin fəlsəfəsini şərq inancları ilə birləşdirən antik fəlsəfi cərəyandır. Neoplatonizmin əsas ideyaları varlığın birliyini Vahid-Əql-Ruh üçlüyündə təsəvvür etmək, insan ruhunun materiyanın təsirindən azad etmə yollarının göstərilməsi, həqiqətin intuisiya vasitəsi ilə kəşf edilməsidir

Klassik sxolastika dövründə (XIV-XV əsrlər) xristian aristotelizmi(Böyük Albert) üstün idi. 15-16 əsrlərdə katolik (neosxolastiklər, ispan iyezuiti F. Suares) və protestant (F. Melanxton) ilahiyyatçılar arasındakı mübahisələr əslində katolik Kilsəsinin Reformasiyaya qarşı mübarizəsini əks etdirirdi.

Müasir sxolastika – yeni dövrün fəlsəfi təlimlərinin (Dekart,Hobbs,Lokk,Kant,Hegel və b .)təsiri ilə sxolastikanın əvvəlki mövqeyi sarsıldı. 19 əsrdən müxtəlif katolik (tomizm, Platon-Avqustin məktəbi və b.) və protestant məktəblərini birləşdirən sxolastikaya maraq artdı.

18. Orta əsrlərdə Qərbi Avropanın ictimai fikrində kanonist nəzəriyyələri xarakterizə edin(5)

Orta əsrlərdə Qərbi Avropanın ictimai fikrində kononist iqtisad nəzəriyyələr mühüm yer tutmuşdu və iqtisad elminin tarixinin şərhini verən bəzi iqtisadçılar iqtisad elminin ilkin tarixini kononistlərdən başlamağı məqsədəuyğun hesab edirlər; onları XIII əsrin bazar təhlilinin pionerləri adlandırırlar və kononist nəzəriyyənin sonrakı klassik iqtisad elminə mühüm təsir etdiyini qeyd edirlər. Hətta sanballı “İqtisadi təhlilin tarixi” (1954-cü il) əsərinin müəllifi olan görkəmli Amerikan iqtisadçısı Y.Şumpeter A.Smitin “Xalqlar sərvəti” əsəri də öz əsaslarını fiziokratlardan və XVIII əsr Britaniya fitredçilərindən deyil, məhz kononistlərdən və təbii hüquq filosoflarından götürdüyünü göstərir. İqtisad elminin tarixi

və metodologiyası ilə intensiv məşğul olan digər görkəmli Amerikan iqtisadçısı M.Blauq da A.Smitin kononistlərin baxışlarını inkar etdiyini göstərsə də, kononist nəzəriyyənin A.Smitə XVII əsr təbii hüquq fəlsəfəçilərindən gəldiyinə də şübhə etməmişdi. Fiziokratların əsərləri də kononist əlamətlərdən xali olmadığı da göstərilir və F.Kenenin özünü də çox vaxtı XVIII əsrin F.Akvinski kimi səsləndirmişlər. İqtisadi ədəbiyyatda K.Marks da əmək-dəyər nəzəriyyəsi ideyasını kononist "ədalətli qiymət" nəzəriyyəsindən götürməsi haqqında fikir də mövcuddur.

Kononist nəzəriyyə kilsə hüququnu təfsir edən kilsə hüquqşünasları tərəfindən yaradıldığından onlar iqtisadi fə¬aliyyətə hüquqi cəhətdən yanaşmışlar. Onlar həmişə iqtisadi məsələlərə sazişin (alverin, alqı-satqının) həyata keçirilmə¬sində istifadə olunan sazişlərin tipləri mövqeyindən yanaş-mışlar. Onlar bazar davranışını əxlaq problemi kimi təsvir et¬mişlər.

Kononistlər iqtisadi məsələləri çox vaxtı Aristotelin ba¬xışlarına münasibət bildirməklə və onun mövqeyini əsas gö¬türməklə şərh etmişlər. Lakin sosial imtiyazlar iddiasında olan kilsənin özünün xüsusi motivləri həlledici əhəmiyyət kəsb et¬mişdi.

Kononistlərin ilkin banisi Avqustin Blajenin (353-430), sonrakı inkişaf mərhələsinin ən nüfuzlu siması Foma Akvinski (Akvinat - 1225-1274) olmuşdu.

Kononistlərin baxışlarında: 1) qiymətin əsas mənbəyi kimi faydalılıq, 2) "ədalətli qiymət" ideyası, 3) pul kapitalının qeyri-məhsuldarlığı haqqında fikir xüsusi yer tutmuşdu. Bu fi¬kirlər onların elmi nailiyyəti hesab olunur. Onlar dəyər konsep¬siyasını "faydalılıq üstəgəl nadirlik" ilə ifadə olunmuş formula ilə inkişaf etdirmişlər. Onların dəyər konsepsiyası faydalılığa əsaslanmışdır.

Kononistlərin "ədalətli qiymət" ideyası rəqabətdən asılı olmayan adi qiymətdir. Onlar qiymətlərin qoyulmasına və tən¬zimlənməsinə şübhə etməmişlər və bunun kübar cəmiyyətin ədəb və adətlərinə uyğun olduğunu göstərirlər. Onların "əda¬lətli qiymət" haqqında baxışları birmənalı olmamışdı və ol¬duqca ziddiyyətli olmuşdu.

F.Akvinskinin "ədalətli qiymət" haqqında fikiri ilkin mək¬təbin nümayəndəsinin fikrindən tamamilə fərqli olmuşdu. İlkin məktəbin nümayəndəsi Avqustin "ədalətli qiymət" altında is¬tehsal xərclərinə bərabər olan qiyməti başa düşmüşdü. İlkin məktəb "mütənasib tarazlığın gözləmə cəmiyyəti tənəzzülə aparması" fikrini söyləmişdi.

19. F.Akvinskinin iqtisadi ideyalarını izah edin(5)

Kononistlərin ilkin banisi Avqustin Blajenin (353-430), sonrakı inkişaf mərhələsinin ən nüfuzlu siması Foma Akvinski (Akvinat - 1225-1274) olmuşdu.

Kononistlərin baxışlarında: 1) qiymətin əsas mənbəyi kimi faydalılıq, 2) "ədalətli qiymət" ideyası, 3) pul kapitalının qeyri-məhsuldarlığı haqqında fikir xüsusi yer tutmuşdu. Bu fi¬kirlər onların elmi nailiyyəti hesab olunur. Onlar dəyər konsep¬siyasını "faydalılıq üstəgəl nadirlik" ilə ifadə olunmuş formula ilə inkişaf etdirmişlər. Onların dəyər konsepsiyası faydalılığa əsaslanmışdır. Kononistlər ilk əvvəllər dəyəri bilavasitə isteh¬lakın ödənilməsilə, son variantda isə nadirliklə əlaqələndir¬mişlər. F.Akvinski bütün nemətlərin dəyərinin yalnız nisbətən insan tələbatlarının ödənilməsi ilə ölçülməsi fikrini söyləmişdir. Lakin onun "ekvivalentlik" haqqında fikri kononistlərin, əvvəlki fikri inkar edən əmək-dəyər nəzəriyyəsinə tərəfdar olması haqqında da rəy yaratmışdı. Çünki, F.Akvinski "ədalətli qiy¬məti" mübadilənin ekvivalentliyi və "ekvivalentliliyin" özünü isə məsrəf, əsasən də əmək məsrəfi kimi başa düşülməsi niyyə¬tində olmuşdu.

Kononistlərin "ədalətli qiymət" ideyası rəqabətdən asılı olmayan adi qiymətdir. Onlar qiymətlərin qoyulmasına və tən¬zimlənməsinə şübhə etməmişlər və bunun kübar cəmiyyətin ədəb və adətlərinə

uyğun olduğunu göstərirlər. Onların "əda¬lətli qiymət" haqqında baxışları birmənalı olmamışdı və ol¬duqca ziddiyyətli olmuşdu.

F.Akvinskinin "ədalətli qiymət" haqqında fikiri ilkin mək¬təbin nümayəndəsinin fikrindən tamamilə fərqli olmuşdu. İlkin məktəbin nümayəndəsi Avqustin "ədalətli qiymət" altında is¬tehsal xərclərinə bərabər olan qiyməti başa düşmüşdü. İlkin məktəb "mütənasib tarazlığın gözləmə cəmiyyəti tənəzzülə aparması" fikrini söyləmişdi.

F.Akvinski isə "ədalətli qiyməti" cari bazar qiyməti ilə ey¬niləşdirir. Onun fikrincə "ədalətli qiymət", təkcə istehsal xərclə¬rini ödəməməlidir, həm də kübar dairələrə mənsub olan adamların yaşamasını da təmin etməlidir. Bununla o, silki mənfeyləri müdafiə edir, mübadiləni qazanca bərabər olan xa¬lis subyektiv akt və şeyləri, onların qiymətindən baha satmağı kübar hakimiyyətinin hüququ hesab edir

Kononistlər ticarət mənfəətinin və faizin mənimsənilmə¬sinə "ədalətli qiymətə" görə mübadilənin pozulması kimi bax¬mışlar. Ona görə də onlar mənfəət əldə etmək məqsədilə olan iri ticarətin və sələmçiliyin qadağan olunması fikrində olmuş¬lar. Kononistlər əmək, mülkiyyət və renta haqqında da müəyyən mülahizələr söyləmişlər. Əməyi müsbət qiymətləndi¬rərək onu həyat üçün zəruri hesab edirlər və onun mərhəmət verdiyini qeyd edirlər. İlkin kononistlər əməyi fiziki və əqli əməyə ayırmayıb, onları bərabər qiymətləndirib və cəmiyyətin ictimai statusuna təsir etmədiyini dedikləri halda, F.Akvinski isə fiziki və əqli əmək arasında fərq qoyub, insanların ictimai statusunun onunla müəyyən edildiyini güman edibdir.F.Akvinski bütün əşyaların təbiətən eyni və onların Allaha məxsus olduğunu və insanın onlardan ancaq istifadə edə bil¬məsini qeyd etməklə yanaşı, xüsusi mülkiyyəti ümumi xeyir və şəxsi mənafe xatirinə zəruri sayır.

20. Maks Veberin tarixin dövrləşməsi, hökmranlıq növləri, din sosial dəyişikliklər haqqında fikirlərini açıqlayın(20)

Cəmiyyət haqqında müasir elmlər içərisində alman mütəfəkkiri Maks Veberin (1864- 1920) ideyaları geniş surətdə yayılmışdır. Onun fikrincə, hansı prinsiplərə əsaslanmasından asılı olmayaraq heç bir konsepsiya gələcəyimizi əvvəlcədən bildirməyə, yaxud proqnozlar verməyə qadir deyildir. Toplanmış empirik materialı ümumiləşdirmək və dünya tarixini izah etmək üçün Veber ideal tiplər adlanan konsepsiyanı işləyib hazırlamışdır. Veber tarixi şərti olaraq üç böyük dövrə bölür: ənənəvi, feodal, Kapitalist adlı bu dövrlər üçün ümumi olan cəhət adamların birinin digəri üzərində Ağalığıdır. Amma ağalıq yaxud idarəçilik formaları və onları doğuran səbəblər Müxtəlif olmuşdur

Veberə görə, üç hökmranlıq növü hökm sürmüşdür və mövcuddur. Bunlar ənənəvi, xarizmatik və rasional tiplərdir.

• Ənənəvi yaxud antik cəmiyyətdə ağalıq, yəni hakimiyyətin hökmdarlar və onlara tabe olanlar tərəfindən müqəddəs və ənənəvi olaraq ən qədim zamanlardan irsən keçmiş olmasına əsaslanırdı. Bu cəmiyyətdə ağa ilə tabe olan arasındakı münasibətlər iqtisadi, yaxud da inzibati prinsiplərlə müəyyən olunmur, ənənəvi borc hissi ilə, tabe olanın öz ağasına sədaqəti ilə müəyyən edilir. Nümunə olaraq feodalizm dövrünü göstərmək olar. Bu dövrdə torpaq sahibkarları kraldan hansısa bir qanun əsasında yox, sadəcə olaraq sadiqlik və yaxınlıq əlamətlərinə görə asılı vəziyyətdə idilər. Kral heç bir qanuna əsaslanmadan özündən aşağı statusda olan istənilən torpaq sahibkarını və yaxud digər şəxsi mülkündən azad edə və ya ona hansısa mülk bağışlaya bilərdi.

Hökmranlığın xarizmatik forması tamamilə hakimin şəxsi ləyaqəti ilə şərtlənir ki, onu əhatə edənlərin və ona tabe olanların gözündə fövqəltəbii, fövqəlinsan, yaxud Allah tərəfindən göndərilmiş kimi görünür. Xarizmatik hakim (lider) xüsusi, qeyri-adi keyfiyyətlərə malik olub, öz tərəfdarlarının gözündə pak, təmiz hesab olunur. Xarizmatik lider rolunda dini vaiz, peyğəmbər, siyasi xadim,

sərkərdə və b. çıxış edə bilər. Xarizmatik idarəçilik öz mahiyyətinə görə irrasionaldır, çünki heç bir qayda ilə nizamlanmır. Həmin idarəçilik liderin (hakimin) populyarlığı, xalq arasında etibarı olana qədər hökm sürür. Onun çoxsaylı tərəfdarları, yetirmələri və ardıcılları olur. Ənənəvi idarəçiliyə oxşar olaraq, bu tip ağalığın da ən zəif cəhəti qanun yox, şəxsi ləyaqətin daha vacib olmasıdır

• Rasional (məntiqlə, qanunla) və ya büroktarik idarəçilik tipində isə bütün hakimiyyət qanunun aliliyi əsasında qurulur. Bu sistem bütün dünyada kapitalizmin dirçəlişindən sonra yayıldı. Belə ki, kapitalizm kimi mürəkkəb sistemi idarə etmək üçün mütləq şəkildə qanunların hazırlanması və tətbiqi zəruri idi. Liderdən tutmuş hakimiyyətin ən aşağı təbəqəsinə kimi bütün vəzifələrə seçkilər və təyinatlar şəxslərin bacarıqları, təhsili və qabiliyyətinə əsasında aparılır. Veberə görə, bu idarə etmə sistemi qanunun aliliyinə görə ən davamlı, möhkəm və effektiv idarəetmə üsulu olmaqla, əsasən böyük ölçüsü (ərazi,əhali,işlərin miqyası) olan cəmiyyətlər üçün səmərəlidir

Özündən əvvəlki bir çox sələfləri kimi, M.Veber də cəmiyyətin tarixinin başa düşülməsində dinə böyük əhəmiyyət verir. Məsələn, onun fikrincə kapitalizmin Qərb modelinin təzahüründə protestantizm mühüm rol oynamışdır. Veber siyasi, iqtisadi və mədəni sahələrdə lider mövqe qazanmış şəxslərin mənsub olduqları dinə baxdıqda onların əksəriyyətinin protestant olduğunu sezmişdir. Bundan əlavə olaraq, Veber nəyə görə təbii sərvət və işçi qüvvəsi cəhətdən Qərb ölkələrindən də irəlidə olan Hindistan və Çin kimi nəhəng ölkələrin sosial-iqtisadi cəhətdən inkişaf etmədiklərini araşdıranda bir daha din faktorunun bu vəziyyətin yaranmasının başlıca səbəb olduğunu görüb. Şərqdə mövcud olan dinlər (hinduizm, konfusizm, İslam) konservativ olduqları və insanları daha çox qeyri-dünyəvi işlərlə (məsələn İslam dinində axirət dünyası ilə) məşqul olmağa çağırdığı halda, protestantizm, katolik mənsəbindən fərqli olaraq, insanları daha çox maddi dünyanın işləri ilə Məşğul olmaqa, pul qazanmaqa və biznes qurmağa, amma eyni zamanda, lüks həyatdan və mənasız yerə vaxt keçirməkdən uzaq durmağa çağırır Veber yaşadığı əsrin orientalist fikirləri ilə İslama yanaşmaqda idi. Veber, İslam haqqında öz fikirlərini, özünün “Din Sosiologiyası” əsərində əks etdirir. Veber də çağdaşı olduğu orientalistlər kimi, İslamın ortaya çıxdığı dövrü, peyğəmbərin şəxsiyyətini, İslam hüququnu və əxlaqını araşdırmış və bu yönlərdən fikirlər söykləmişdi

21. Merkantilizmin yaranmasının sosial-iqtisadi ilkin Şərtlərini izah edin.(5)

İqtisadi nəzəriyyənin ilkin tarixi merkantilizmdir. Merkan¬tilizmə qədər iqtisadi nəzəriyyə müstəqil tədqiqat sahəsi olma¬mış, iqtisadi tədqiqatlar sistemsiz şəkildə aparılmış, hətta iqti¬sadi fəaliyyətin özü belə müstəqil fəaliyyət sahəsi kimi qəbul edilməmişdi. Merkantilizm iqtisadi fəaliyyəti, iqtisadi hadisə, prosesləri və qanunauyğunluqları ilk sistemli öyrənən nəzəri praktiki sistem olmuşdu.

Kapitalist iqtisadiyyatının və baza münasibətlərinin ma¬hiyyətini və təzahür formalarını ilk dəfə öyrənən merkantilistlər olmuşdu. Merkantilizm (italyanca merkante sözü olub, mənaca tacir deməkdir) kapitalist iqtisadiyyatının ilk nəzəri işlənilmə¬sidir. Bazar iqtisadiyyatının "ticarət sistemi" kimi öyrənilməsi-dir. Merkantilizm bazar iqtisadiyyatının konseptual əsasını təşkil edir və bazar təsərrüfatlı iqtisadi sistemin iqtisadi siya¬səti və nəzəriyyəsi öz başlanğıcını ondan götürür. Sonrakı iq¬tisadi siyasət və nəzəriyyə sistemləri isə merkantilizmin tən¬qidi əsasında yaranmışdı.

Merkantilizm XV-XVIII əsrlərdə Qərbi Avropa ölkələrində iqtisadi siyasətin və iqtisadi fikrin əsas cərəyanı olmuşdu. Bunu həmin dövrlərdə Qərbi Avropa ölkələrinin iqtisadi inki¬şafında baş vermiş sosial iqtisadi dəyişikliklərlə: böyük coğrafi kəşflər, ilkin kapital yığımı prosesi, əmtəə-pul münasibətlərinin inkişafı, milli bankların yaranması, dünya bazarının yaranması və beynəlxalq ticarətin genişlənməsi və s. əlaqələndirmək la¬zımdır.

22. Merkantilizmin əsas ideya və prinsiplərini izah edin(5)

Merkantilist ideyalar və prinsiplər müasir bazar təsərrüfatlı sistemlərdə indinin özündə də istifadə edilir. Bunlar ümumi əlamətləri merkantilistlər tərəfindən işlənib hazırlanmış mübadilə konsepsiyanı, proteksionist tədbirləri, aktiv ticarət balansını və s. Bu cür tədbirləri aid etmək olar. Merkantilizmin əsas ideyaları və prinsipləri aşağıdakılardan ibarət olmuşdu:

Qiymətli metalların və onların yığımı sərvətin mahiyyətini əks etdirməsi; dövlətin sərvətinin və gücünün qızıl və gümüş yığımı yolu ilə artırılması; ölkəyə qızıl və gümüş axının təmin olunması məqsədilə xarici ticarətin tənzim edilməsi; ucuz xammalın idxalı yolu ilə sənaye inkişafına kömək etmək; idxal olunan sənaye məhsullarına proteksionist tariflərin qoyulması; ixracın, xüsusən hazır məhsulun ixracının həvəsləndirilməsi; əmək haqqının aşağı səviyyəsini saxlamaq üçün əhalinin artırılması və s. Öz dövrü üçün bu ideyalar iqtisad elminin ciddi nailiyyəti idi. Merkantilist ideyalar və prinsiplər o dövrün iqtisadi inkişafının əsl qanunauyğunluqlarını və tələbatını əks etdirmişdi.

23. Merkantilizmin tədqiqat predmetini və metodunu Müəyyənləşdirin.(5)

Merkantilizmin məğzini və məqsədini ölkəyə pulun, yəni qiymətli metalın cəlb edilməsi təşkil edir. Hər cür sahibkarlığın başlanğıcını, çıxış nöqtəsini pul təşkil edir. Bu pul da, sahibkarlar onun vasitəsilə fəhlə tutduqda, emal üçün və ya yenidən satmaq üçün əmtəə satın aldıqda pul kapitalına çevrilir. Bu fakt merkantilizmin əsasında durur.

Merkantilistlər əsas diqqətlərini tədavül sferasına verirlər. Onlar istehsala sadəcə olaraq sərvəti artırmaq üçün bir vasitə kimi baxırlar. Onların təlimində istehsal xarici ticarətin məqsədinə tabe etdirilir. İstehsal pulun xaricə axmaması işinə xidmət etməli olur. Onlar əsasən sərvətin mübadilə dəyəri formasına diqqət vermişlər. Sərvəti pul ilə eyniləşdirmişlər, onu qızıl və gümüş yığımından ibarət təsəvvür edirlər və çox pulu olan dövləti daha varlı sayırdılar. Sərvətin mənbəyini tədavül sferasında, əsasən xarici ticarətdə görürlər. Qeyri-ekvivalent mübadiləni əsas götürürlər və ucuz alıb baha satmağı sərvətin mənbəyi hesab edirlər. Ona görə də, onlar iqtisadi siyasətlərini həyata keçirmək üçün dövlət müdafiəsinə möhtac olmuşlar. Merkantilist müdrikliyinin yüksək zirvəsixaricdən satın alındığından daha çox xaricə satmaq olmuşdu. Merkantilistlər, yalnız qızıl və gümüş hasilatı üzrə əməyi və ya ölkəyə qiymətli metalların axınını təmin edən (sənayenin ixrac sahələrindəki, xarici ticarətdəki) əməyi məhsuldar əmək hesab edirlər. Onlar görürlər ki, qızıl və gümüş hasilatına sərf olunan əmək və həmçinin ixrac sahələrindəki əmək, digər sa¬hələrdə tətbiq olunan əməkdən çox mənfəət gətirir.

24. Merkantilizmin iqtisadi nəzəriyyə və iqtisadi siyasət kimi Müqayisəli təhlilini verin(5)

Merkantilizm iqtisadi fəailiyyəti, iqtisadi hadisə, prosesləri və qanunauyğunluqları ilk sistemli öyrənən nəzəri praktiki sistem olmuşdu. Kapitalist iqtisadiyyatının və bazar münasibətlərinin mahiyyətini və təzahür formalarını ilk dəfə öyrənən merkantilistlər olmuşdu. Merkantilizm (italyanca merkante sözü olub, mənaca tacir deməkdir) kapitalist iqtisadiyyatının ilk nəzəri işlənilməsidir. Bazar iqtisadiyyatının "ticarət sistemi" kimi öyrənilməsidir. Merkantilizm bazar iqtisadiyyatının konseptual əsasını təşkil edir və bazar təsərrüfatlı iqtisadi sistemin iqtisadi siyasəti və nəzəriyyəsi öz başlanğıcını ondan götürür. Sonrakı iqtisadi siyasət və nəzəriyyə sistemləri isə merkantilizmin tənqidi əsasında yaranmışdı. Merkantilizm XV-XVIII əsrlərdə Qərbi Avropa ölkələrində iqtisadi siyasətin və iqtisadi fikrin əsas cərəyanı olmuşdu. Bunu həmin dövrlərdə Qərbi Avropa ölkələrinin iqtisadi inkişafında baş vermiş sosial iqtisadi dəyişikliklərlə: böyük coğrafi kəşflər, ilkin kapital yığımı prosesi, əmtəə-pul münasibətlərinin inkişafı, milli bankların 3 yaranması, dünya bazarının yaranması və beynəlxalq ticarətin genişlənməsi və s. əlaqələndirmək lazımdır. Merkantilist ideyalar və prinsiplər müasir bazar təsərrüfatlı sistemlərdə indinin özündə də istifadə edilir. Bunlar ümumi əlamətləri merkantilistlər tərəfindən işlənib hazırlanmış mübadilə konsepsiyanı, proteksionist tədbirləri, aktiv ticarət balansını və s. Bu cür tədbirləri aid etmək olar. Merkantilizmin əsas ideyaları və prinsipləri aşağıdakılardan

ibarət olmuşdu: Qiymətli metalların və onların yığımı sərvətin mahiyyətini əks etdirməsi; dövlətin sərvətinin və gücünün qızıl və gümüş yığımı yolu ilə artırılması; ölkəyə qızıl və gümüş axının təmin olunması məqsədilə xarici ticarətin tənzim edilməsi; ucuz xammalın idxalı yolu ilə sənaye inkişafına kömək etmək; idxal olunan sənaye məhsullarına proteksionist tariflərin qoyulması; ixracın, xüsusən hazır məhsulun ixracının həvəsləndirilməsi; əmək haqqının aşağı səviyyəsini saxlamaq üçün əhalinin artırılması və s. Öz dövrü üçün bu ideyalar iqtisad elminin ciddi nailiyyəti idi. Merkantilist ideyalar və prinsiplər o dövrün iqtisadi inkişafının əsl qanunauyğunluqlarını və tələbatını əks etdirmişdİ.

25. Merkantilizmin inkişafında iki mərhələ: "monetar" və"ticarət balansı" nəzəriyyəsini izah edin(5)

Merkantilizmin bu iki mərhələsi bir-birindən pulun az xərclənməsi və onu çoxaltmaq üçün təklif etdikləri üsul və tədbirlərlə fərqlənir. İlk merkantilizm qanunvericilik yolu ilə milli miqyasda pul sərvətinin artırılmasına yönəldilmiş monetar siyasəti yerinə yetirmişdir. Onların fikrincə sərvət pula sahib olmaqdır. Fərd kimi, dövlət də əgər sərvətini artırmaq istəyirsə əldə etdiyindən az xərcləməlidir. Onlar bu artıqlığı qiymətli pulun (metalın) və yaxud yığımın əldə olunması ilə eyniləşdirmişlər. İlk merkantilistlər öz "pul balansı" nəzəriyyələri ilə pula əslində dəfinə kimi yanaşır və hər bir alqının onun miqdarını azaltdığını göstərib, imkan daxilində xaricdən alqıdan imtina etməyə çalışırdılar. Ölkədə nəğd pulun (qızıl və gümüş) daha çox toplanması məqsədi ilə onların xaricə ixrac olunmasını qadağan edirlər. İnkişaf etmiş merkantilizm "aktiv ticarət balansı" sistemini müdafiə edir. Bu mərhələdə merkantilistlər pula həqiqi kapitalist kimi yanaşır, onlar başa düşürlər ki, pulun yeni pul yaratması üçün o, hərəkətə gətirilməlidir. Onlar xarici ticarəti inkişaf etdirməyi tələb edirlər. Yetkin merkantilistlərin nəzəriyyəsinin əsasında milli rifahın vacib şərti kimi aktiv ticarət balansı nəzəriyyəsi durmuşdu İnkişaf etmiş merkantilizm ixracatın nisbətən artıq olması vasitəsi ilə ölkəyə pul toplamağı və aktiv ticarət balansını təmin etməyi əsas götürür. Aktiv ticarət balansını təmin etmək üçün merkantilizmin mühüm tələbi- himayəçilik siyasəti, dövlətin təsərrüfat həyatına bilavasitə qarışması siyasəti olmuşdu.

26. Kolberin merkatilist siyasətinin əsas və səciyyəsi cəhətlərini göstərin(5)

Merkantilizmi təcrübədə həyata keçirən Fransada XIV Lüdovikin maliyyə naziri Kolber (1619-1683) olmuşdu. O, dövlət gəlirlərini aktiv ticarət balansı vasitəsi ilə artırmağa çalışır. Kolberinin merkantil siyasətinin əsas və ən səciyyəvi cəhəti ölkədə manufaktura inkişafına himayədarlıq idi. Bu siyasət bir sıra himayəçi - qoruyucu xarakterli tədbirlər vasitəsi ilə həyata keçirilirdi. Fransız əmtəələrinin xaricə ixracını şirniklәndirməklə yanaşı, hazır əcnəbi mallar idxalı azaldılır. Bu məqsədlə idxalat gömrükləri sistemi tətbiq edilmişdir. Xarici manufakturaların mallarına yüksək gömrük qoyulurdu. Kolber, dövlət büdcəsindən manufakturalara mükafat və müstəqil yardım etmək üçün bir milyon lirə pul ayırmışdı. Digər tərəfdən Fransada kənd təsərrüfat xammalı və məhsulları ixracına icazə verilmirdi, bununla da ölkədə manufakturalar üçün əlverişli şərait yaratmağa çalışırdı. İstər daxili, istərsə də xarici ticarəti inkişaf 10 etdirmək üçün nəqliyyat vasitələri də inkişaf etdirilirdi. Bütün bu tədbirlərdə məqsəd xarici ixracatı artırmaq, idxalı məhdudlaşdırmaqla aktiv ticarət balansı siyasətini həyata keçirmək idi. Onun sisteminə xammal ixracına qadağa, bir sıra bitkilərin əkilməsi daxildir. yeni sənaye sahələri və xarici ticarət üçün şirkətlərin yaradılması idi.

27. Klassik siyasi iqtisadın tarixi şəraitini və ümumi Xüsusiyyətlərini açıqlayın(5)

İqtisadi fikir tarixində klassik iqtisad məktəb XVII əsrin axırı və XVIII əsrin əvvəllərində iqtisadi jəhətdən inkişaf etmiş Qərbi Avropa ölkələrində kapitalist istehsalının manufaktura mərhələsində yaranmışdır. Burada İngiltərə ön jül olmuşdur. Bu dövrdə feodalizmin dağılması başa çatır və liberal bazar sistemli kapitalist iqtisadiyyatı təşəkkül tapır, tijarət mənfəəti kapitala çevrilmiş və o, daha çox istehsala, xüsusilə də sənaye istehsalına yönəlmişdir. Bu proseslər iqtisadi düşün jədə də mühüm dəyişikliklər etmişdir. Bu dövrdən merkantilist düşün jələrdən klassik iqtisadi düşün jəyə keçid

başlamışdır. Klassik iqtisad məktəbinin nümayəndələri dövrün ijtimai tələbatına uyğun olan merkantilizmin iqtisadi prinsiplərinə və nəzəriyyələrinə əks və alternativ olan iqtisadi prinsiplər və ideyalar irəli sürmüşlər. Onlar protoksionizmdən imtina etmişlər, əvəzində laisser faire - təbii azadlıq siyasətini, liberal prinsiplər və ideyalar: azad tijarət, azad iqtisadiyyat, azad xüsusi sahibkarlıq, iqtisadiyyata dövlətin minimal qarışması, tələb və təklifdən asılı olaraq əmələ gələn azad qiymətlərə əsasən bazar tənzimlənməsi və s. irali sürmüşlar. Onlar tadqiqatın obyektini tədavül sferasından istehsal sferasına keçirmişlər, əsasən istehsal sferasının problemlərini tədavül sferasından aynlıqda öyrənmişlər. Beləliklə klassik məktəbin sayəsində liberal iqtisadiyyatın problemlərini öyranan haqiqi elmi sistemə çevrilmişdir. Klassik iqtisad məktəb öz inkişafında bir neçə mərhələdən keçmişdir. Bunu 3 mərhələyə bölmək olar. I mərhələ -klassik nəzəriyyənin təşəkkülü və formalaşması((XVII əsrin sonu və XVIII əsrin ortaları) və ya merkantilizmdan klassik nəzəriyyəyə keçid və onun əsaslarının yaradılması dövrü də adlandırmaq olar. Klassik nəzəriyyənin I mərhələsinin nümayəndələri İngiltərədə U.Petti (1623-1689) və Fransada P.Buagilber (1646-1714), asas jərəyanı isə klassik məktəbin xüsusi jərəyanı olan fiziokratizm olmuşdur. II mərhələ klassik nəzəriyyələrin inkişafı və başa çatması

(XVIII əsrin axırlarını və XIX əsrin əvvəlləri) dövrü klassik iqtisadi nəzəriyyə bütöv iqtisadi baxışlar sistemi kimi mövjud olmuşdur. Bu mərhələnin görkəmli simaları A.Smit (1723-1790) və D.Rikardo (1772- 1823) olmuşdur. İ O, klassik nəzəriyyənin təməl prinsipi olan iqtisadi liberalizmin əsaslarını yaratmışdır. Klassik nəzəriyyənin III mərhələsi - klassik nəzəriyyənin tənqidi, onun bütöv iqtisadi baxışlar sisteminin dağılması və təkamülü kimi xarakterizə olunur. Bu (XIX əsrin I yarısının ortalarından XIX əsrin axırına qədər) mərhələdə klassik iqtisadi nəzəriyyənin əsas müddəalarının bir qismi təkamülə uğrayıb daha da inkişaf etdirilibsə, müəyyən qismi isə tənqid və inkar olunmuşdur.

28.Merkantilizmin ayrı-ayrı ölkələrdə xüsusiyyətlərini izah Edin.(10)

Müxtəlif ölkələrdə merkantilizmin özünə məxsus xüsu¬siyyətləri olmuşdur. Ən inkişaf etmişi və tipiki ingilis merkanti¬lizmi olmuşdu. İngiltərədə merkantilizm iki əsr (XVII əsrin 2-ci yarısında - XIX əsrin 2-ci yarısına kimi) rəsmi dövlət siyasəti olmuşdur. Bu, İngiltərədə iqtisadi inkişafın sürətli olması və ingilis burjuaziyasının yetkinliyi ilə izah olunur. Yetkin ingilis merkantilizminin ideyaları Tomas Man (1571-1641-ci illər) tə¬rəfindən yaradılmışdı. Man 1615-ci ildə ilk dəfə olaraq Şərq-hind kampaniyasının direktorları şurasına seçilir. O, ticarət strategi olmuşdur. Yetkin ingilis merkantilizminin əsas prinsi¬pləri: xammal (xüsusən yun) ixracı qadağan edilməsi və hazır məmulat ixracı olmuşdur. Xarici ölkənin sənaye mallarının İn¬giltərəyə daxil olması yüksək gömrük haqqı ilə məhdudlaşdı¬rılmışdır ki, bu da vətən manufakturalarının inkişafına kömək edirdi. Həyata keçirilən tədbirlərin mühüm məqsədi qiymətli metalların ölkəyə axınının artırılması idi. Donanmaya böyük diqqət yetirilirdi, çünki o, dünyanın bütün sahələrinə yük daşı¬malı və ingilis ticarətini müdafiə etməli idi.

T.Man xarici ölkə mallarının alınması üçün ölkədən qiy¬mətli metalların ixracını qadağan edən tədbirlərə qarşı inadlı mübarizə aparmış. O, sübut edir ki, hind mallarını satın almaq üçün ixrac edilən gümüş heç də itirilmir, əksinə böyük artımla İngiltərəyə qayıdır. Bu malların xeyli hissəsi Avropanın digər ölkələrinə yenidən gümüş və qızıla satılır. O yazırdı ki, sonra¬dan məhsul almaq üçün kəndliyə taxılı torpağa səpmək lazım olduğu kimi, tacirə də pulu aparıb xarici ölkə mallarını satın almaq lazımdır ki, sonradan daha çox öz malını satsın və əlavə pul məbləği şəklində millətə xeyir versin.

Fransız merkantilizminin iqtisadi ideyaları Antuan Mon¬kretyenin (1575-1621), "Siyasi iqtisadın traktatı" əsərində ve¬rilmişdir. Monkretyen hesab edir ki, "insanların xoşbəxtliyi sər¬vətdədir, sərvət isə əməkdədir", bolluq (israfçılıq) yalnız yerli məhsulların istehlakı, onun istehsalçılarının işi olduğu və "mənfəətin ölkə daxilində qaldığı" halda qanunidir. Əcnəbiləri Fransadan sərvəti çıxaran nasosla

müqayisə edir. O, onların qovulmasını, sənayenin inkişafını və onun məhsulunun tək¬milləşdirilməsini təklif edir

Merkantilizmi təcrübədə həyata keçirən Fransada XIV Lüdovikin maliyyə naziri Kolber (1619-1683) olmuşdu. O, dövlət gəlirlərini aktiv ticarət balansı vasitəsi ilə artırmağa ça¬lışır. Kolberinin merkantil siyasətinin əsas və ən səciyyəvi cə¬həti ölkədə manufaktura inkişafına himayədarlıq idi. Bu siya¬sət bir sıra himayəçi - qoruyucu xarakterli tədbirlər vasitəsi ilə həyata keçirilirdi. Fransız əmtəələrinin xaricə ixracını şirnik¬ləndirməklə yanaşı, hazır əcnəbi mallar idxalı azaldılır. Bu məqsədlə idxalat gömrükləri sistemi tətbiq edilmişdir. Xarici manufakturaların mallarına yüksək gömrük qoyulurdu. Kolber, dövlət büdcəsindən manufakturalara mükafat və müstəqil yar¬dım etmək üçün bir milyon lirə pul ayırmışdı. Digər tərəfdən Fransada kənd təsərrüfat xammalı və məhsulları ixracına icazə verilmirdi, bununla da ölkədə manufakturalar üçün əlverişli şə¬rait yaratmağa çalışırdı. İstər daxili, istərsə də xarici ticarəti inkişaf etdirmək üçün nəqliyyat vasitələri də inkişaf etdirilirdi. Bütün bu tədbirlərdə məqsəd xarici ixracatı artırmaq, idxalı məhdudlaşdırmaqla aktiv ticarət balansı siyasətini həyata ke¬çirmək idi.

29. U. Pettinin əmək dəyər nəzəriyyəsini, məhsuldar əmək, əmək haqqı, renta, faiz, torpağın qiyməti, kapitalın dövriyyəsi haqqında fikirlərini və pul konsepsiyasını əsaslandırın(20)

İngiltərədə klassik iqtisadın yaradıcısı olan U. Pettinin siyasi iqtisadi bacışları öz əksini onum tərəfindən yaradılmış “Vergilər və rüsumlar haqqında traktat” , “Siyasi hesab” , “İrlandiyanın siyasi anatomiyası” əsələrində tapmışdır.

Püettinin elmi naliyyətlərindən biri də dəyər nəzəriyyəsi olmuşdur. Bəzi iqtisadçılar, məsələn, Mak-Kullox U.Pettini klassik məktəbin təliminin əsasında duran əmək dəyər nəzəriyyəsinin banisi adlandırmışdır. K. Mark yazır ki, Petti əslində əmtəələrin dəyərini bunlardakı əməyin müqayisəli maraqları ilə müəyyən edir.K.Mark həmdə göstərir ki, izafi dəyərin müəyyən edilməsi məhz dəyərin müəyyən edilməsindən asılıdır. Pettidə əmək-dəyər nəzəriyyəsi yoxdur, az-çox nəzərə çarpan əmək haqqı nəzəriyyəsi, deməli, izafi dəyərin başa düşülməsinin heç bir əlaməti də ola bilməz. O, dəyəri məsrəf prinsipi ilə əməklə müəyyən etmişdir. Əmtəəlırin dəyərini təhlil etdikdə “təbii və süni” “siyasi” qiyməti bir birindən fərqləndirmişdir

Pettinin təlimində əmək haqql və renta nəzəriyyələridə xüsusi yer tutmuşdur. O əmək haqqını və rentanı özünün dəyər nəzəriyyəsi əsasıından şərh etmişdir. Petti əmək haqqında əməyin dəyəri, daha doğrusu, əməyin təbii qiyməti kimi baxmış, onun kəmiyyətini zəruri yaşayış vasitələrinin dəyərinə bərabər tutmuşdur. O hesab edirki, işçi yaşamaq, əməklə məşğul olmaq və nəsil artırmaq üçün tələb olunandan artıq almamalıdır. Yəni işçinin əməyi ilə yaradılan dəyər, onun əmək haqıqndan daha böyük kəmiyyətdir

Petti bu rentanın torpaq sahələrinin münibtliyinin, onların bazara yaxın və uzaqda yerləşməsi ilə əlaqədar olaraq artıb və azaldığını göstərir. İstehlak mərkəzlərinə yaxın olan torpaqların rentası çox olur. Bu fərqi Petti differensial renta adlandırmışdır. Petti torpağın qiymətini kapitallaşmış renta hesab edir və onu torpağın müəyyən illərdə gətirdiyi rentanın məbləğinə bərabər tutmuşdur. Petti torpağın qiymətinj müəyyən edərkən müəyyən dövrün rentasını götürmüşdür

Petti “maddi faiz nəzəriyyəsini” yaratmışdır. Petti faiz dərəcəsinin tədavüldəki pulun miqdarı ilə müəyyən olduğunu göstərmiş və faiz dərəcsinin məhdudlaşdırılmasına qarşı olmuşdur. Onun fikrincə, faiz dərəcəsinə müdaxilə təbii qanunlaea ziddir. O göstərir ki faiz istehsalın artımına mənfi yöndə təsir etməməlidir.

Onun fikrincə, əhalisi çox olan millət az olandan daha zəngindir və iqtisadi inkişafı müəyyən edən dinamik amil kapital qouuluşundan çox əhali artımıdır. İngiltərənin ilk milli gəlir hesabını da Petti aparmışdır və buna görədə o iqtisad elminə milli gəlirin təhlilinjn öncüsü sayılır. O, milli gəliri əhalinin istehlak xərclərinin cəmi kimi hesablamışdır. Burada onun nöqsanı yığım və kapital qoyuluşların ona daxil etməməsi olmuşdur.

Pettiyə görə verfilər sabit dərəcədə və gəlir yayımına təsir etməyən həcmdə olmalıdır. Pettiyə görə sadəcə torpaq sahibi deyil, məhz bu torpaqda yetişən soğan və ortaya çıxan yumurtanı yeyən hər kəs vergi ödəyir

30. Fiziokratlar məktəbinin tədqiqat predmetini və metodunu izah edin.(5)

İqtisadi fikir tarixində fiziokratlar məktəbi mühüm yer tutur və bu məktəbin nümayəndələri bir çox yeniliklər yarat¬mışlar. XVIII əsrin or¬talarında Qərbi Avropada kapitalizmin inkişafı gedirdi , İngiltərədə sənaye çevrilişi başlamışdı. İlkin kapital yığımı dövrü artıq başa çatmışdı. Fransada isə manufaktura kapitalizmi möhkəmlənir, XYIII əsrin sonlarına kimi feodalizm, aqrar münasibətləri qalırdı. XIV-XV əsrlərdə təhkimçilik öz əhəmiyyətini sarsıtsa da XVIII əsrdə müəyyən mənada saxlanılırdı. Geniş miqyasda olmasa da işləyib ödəmə münasibətləri qalırdı.

Fransa monarxiyası kəndliləri ağır ver¬gilər altında saxlayırdı. Fransız kəndlisi torpaqdan və mal-qaradan məh¬rum edilmişdi, məhsul verimi çox aşağı səviyyədə idi. Taxıl üzərində ən yüksək qiymətlər mövcud idi. Xaricə taxıl aparmaq qadağan idi, ucuz taxılın gətirilməsi isə getdikcə artırdı. Kasıb fransız kəndi sənaye məhsullarının satılması üçün yararlı deyildi. Kiçik həcmli Fransız sənayesi texniki tərəqqi üçün maneəçilik törədirdi, kapitalist sənayesinin artmasının qarşı¬sına əngəl törədirdi.

Fransada aqrar münasibətləri kəskin xarakter almışdı və bu məsələnin həllində fiziokratlar müstəsna rol oynayırdılar. Fiziokratlar ölkədə yeg¬anə sərvət yarada biləcək sahəni kənd təsərrüfatında görürdülər. Onlar sənayeni məhsul¬dar sahə hesab etmirdilər. Kənd təsərrüfatında izafi məhsulun yaradılmasını sərf-nəzər edən fiziokratlar istehsal dairəsini aq¬rar münasibətləri ilə məhdudlaşdırırdılar. Aqrar ölkə¬lərdə, xüsusilə müstəmləkələrdə ticarət öz ictimai əhəmiyyə¬tini itirmişdi. Məhz buna görə də Qərbi Avropada kapitalizmin yaranması və inkişafı merkantilistlərin proqramına və nəzəriyyələrinə yeni¬dən baxmağı tələb edirdi. XVIII əsr Fransasında kənd təsərrüfatı iqtisadi ziddiy¬yət¬lə¬rin mərkəzinə çevrilmişdi. Kənd təsərrüfatını belə bir və¬ziyyətdən çıxarmaq üçün kənd təsərrüfatında kapitalizmin inki¬şafının yollarını və formalarını müəyyən etmək tələb olunurdu. Kapitalizmin kənd təsərrüfatında inkişafına olan maraq get¬dikcə artırdı və belə bir şəraitdə fiziokratizmin yaranması üçün şərait yaranırdı. Fiziokratlar Fransanın iqtisadi durğunluğunun həllini kənd təsərrüfatında görürdülər.

Merkantilistlərin iqtisadi ideyaları ilə mübarizənin nəticəsi olaraq fiziokratlar XVIII əsrdə Qərbi Avropada baş verən iqtisadi irəliləyişləri ümumi¬ləşdirmişlər. Merkantilistlər ilə gedən mübarizə Fransada Fiziokratizm adlanırdı.

31. F.Kenenin “iqtisadi cədvəlində” təkrar istehsalın təhlilini Verin.(5)

F.Kene özünün məşhur əsəri olan "İqtisadi cədvəl"də təkrar istehsal prosesinin təhlilini vermişdir (1758). F.Kenenin "İqtisadi cədvəl"ində məcmu məhsul tədavül prosesi zamanı bilavasitə üç sinif arasında bölüşdürülür: məhsuldar sinif, mülkiyyətçi siniflər, səmərəsiz sinif. Məhsuldar sinif dedikdə o, kəndliləri, fermerləri, kənd təsərrüfatında olan muzdlu fəhlələri, yəni kənd təsərrüfatında məşğul olan bütün əhalini başa düşürdü. Mülkiyyət sahiblərinə isə F.Kene "xalis məhsul" əldə edənləri, yəni torpaqdan gəlir alanları aid edirdi. "Səmərəsiz", qeyri məhsuldar sinif dedikdə F.Kene sənayedə məşğul olan muzdlu işçiləri, sənətkarları, kapitalistləri, tacirləri və kiçik alverçiləri nəzərdə tuturdu.

F.Keneyə görə "səmərəsiz sinif", mülkiyyət sahibləri "xalis məhsul" yaratmırlar, lakin onlar öz əməkləri vasitəsilə özlərinə lazım olan miqdarda istehlak şeyləri istehsal edir və tələbatlarını ödəyirlər.Torpaq sahibləri F.Kenenin əsas ideyasını təşkil edir və xüsusi sinif kimi izah edilirdi. O, xüsusi sinif adlandırdığı torpaq sahiblərini məhsuldar siniflə "səmərəsiz" sinif arasında yerləşdirirdi.

"İqtisadi cədvəl" cəmiyyətin illik məhsulunun reallaşdırılmasını və təkrar istehsalın formalaşdırılmasının şərtlərini özündə əks etdirən bir sxemadır. "İqtisadi cədvəldə" sadə təkrar istehsalı təhlil etmək məqsədilə yığım prosesini, pulun dəyərinin dəyişməzliyini, əmtəələrin qiymətlərinin sabitliyini təklif etmiş və reallaşma prosesinə xarici ticarətin təsirini cədvəldən çıxarmışdır.

F.Kenenin dahiliyi ondan ibarətdir ki, o, iki istehsal bölməsinin-xammal istehsalı ilə sənaye arasında olan əlaqələrin iqtisadi mənalarının təhlilini vermişdir. Qeyd edək ki, XVIII əsrin son rübündə belə bir "İqtisadi cədvəl"in yaradılması iqtisad elmində inqilab demək idi.

F.Kenenin "İqtisadi cədvəl"inə görə torpaq sahibləri fermerlərdən istehlak (tələbatları ödəmək üçün) məhsulları alırlar. Bu məhsullar bir mlrd. livr təşkil edir. Bu pullar fermerlərdə qalır. Sonrakı reallaşdırma ikinci mlrd. dolların hesabına həyata keçirilir. Buna da torpaq sahibkarları sənaye əmtəələri alırlar. Bununla da torpaq sahibkarlarının ictimai məhsulun reallaşdırılması prosesində olan iştirakı başa çatır. Çünki F.Keneyə görə torpaq sahibləri özlərini istehlak malları ilə təmin edirlər, yəni onların yaşayış vasitələri artıq vardır, bu məhsullar bir il üçün nəzərdə tutulur və öz öhdələrinə təkrar istehsal prosesində düşən vəzifələrini yerinə yetirmiş olurlar.

32. F.Kenenin xalis məhsul, məhsuldar əmək, siniflər, kapital Haqqında fikirlərini və "təbii cəmiyyət" konsepsiyanı izah Edin(10)

Fiziokratların iqtisadi nəzəriyyələrinin mərkəzi nöqtələrindən biri "xalis" və ya izafi məhsul haqqında olan təlimləridir. Merkantilistlərin əksinə olaraq fiziokratlar izafi məhsulun mənşəyini tədavül sferasından maddi istehsal sferasına daxil edirlər, bununla da kapitalist istehsalının təhlilinin əsasını qoyurlar. "Vergilər" məqaləsində F.Kene yazırdı ki, "xalis məhsul" hər il yaradılan sərvətdir. Bu sərvət millətin gəlirini təşkil edir ki, əkinçilikdə yaradılan məhsuldan bütün xərcləri çıxdıqdan sonra qalan gəlirdir. Beləliklə, Fiziokratlar göstərirdi ki, "xalis məhsul" ancaq əkinçilikdə yaradılır. F.Kene qət edirdi ki, sənaye ancaq istehlak edir və buna görə də sənayedə xalis məhsul yaradılmır; sənaye əməyi ilə yaradılan sərvət torpağın verdiyi gəlir hesabına olur və ona görə də sənaye qeyri-məhsuldar sahədir.

Fiziokratların "xalis məhsul" haqqında olan təliminda başa düşürdülər ki, məhsuldar əmək elə bir əməkdir ki, o izafi dəyər yaradır, yəni "xalis məhsul" istehsal edir. Ancaq yuxarıda qeyd etdiyimiz kimi, onlar məhsuldar əməyi kənd təsərrüfatına, əkinçiliyə tətbiq edilən əmək hesab edirdilər

F.Kene özünün məşhur əsəri olan "İqtisadi cədvəl"də təkrar istehsal prosesinin təhlilini vermişdir (1758). F.Kenenin "İqtisadi cədvəl"ində məcmu məhsul tədavül prosesi zamanı bilavasitə üç sinif arasında bölüşdürülür: məhsuldar sinif, mülkiyyətçi siniflər, səmərəsiz sinif. Məhsuldar sinif dedikdə o, kəndliləri, fermerləri, kənd təsərrüfatında olan muzdlu fəhlələri, yəni kənd təsərrüfatında məşğul olan bütün əhalini başa düşürdü. Mülkiyyət sahiblərinə isə F.Kene "xalis məhsul" əldə edənləri, yəni torpaqdan gəlir alanları aid edirdi. "Səmərəsiz", qeyri məhsuldar sinif dedikdə F.Kene sənayedə məşğul olan muzdlu işçiləri, sənətkarları, kapitalistləri, tacirləri və kiçik alverçiləri nəzərdə tuturdu.
F.Keneyə görə "səmərəsiz sinif", mülkiyyət sahibləri "xalis məhsul" yaratmırlar, lakin onlar öz əməkləri vasitəsilə özlərinə lazım olan miqdarda istehlak şeyləri istehsal edir və tələbatlarını ödəyirlər.Torpaq sahibləri F.Kenenin əsas ideyasını təşkil edir və xüsusi sinif kimi izah edilirdi. O, xüsusi sinif adlandırdığı torpaq sahiblərini məhsuldar siniflə "səmərəsiz" sinif arasında yerləşdirirdi.

Fiziokratların kapital haqqında olan nəzəriyyələri isə böyük əhəmiyyət kəsb edir. Merkantilistlər kapital ilə pulu eyniləşdirirdilər, Fiziokratlar isə kapitalın əşya tərkibini təhlil edirdilər. İstehsal xərclərinin təhlili F.Keneyə imkan verirdi ki, kapitalın tərkib hissələrini o ayıra bilsin. Əkinçilik işlərinə hər il sərf edilən xərcləri F.Kene illik avans adlandırırdı (toxum, iş qüvvəsi). Bir neçə il fəaliyyət göstərən kənd təsərrüfatı maşınlarına, tikililərə, mal-qaraya və s. çəkilən xərcləri isə ilkin avans hesab edirdi.

Fiziokratların nəzəri axtarışlarının əsasını "təbii qaydalar" təşkil edirdi. Belə bir konsepsiyanı F.Kene özünün "Təbii hüquq" (1765) əsərində şərh etmişdir. F.Kene belə hesab edirdi ki, ictimai qanunların özü "təbii qaydalar" qanunlarıdır. Bu qanunlar allah tərəfindən göndərilmişdir və cəmiyyət onlardan təkrar istehsal və bölgü münasibətlərində istifadə etməlidir. O, göstərirdi ki, fiziki qanunlar təbii qaydaları müəyyən etməklə yanaşı insanların bütün təbii hüquqlarını müəyyən edirlər.

33. J.Tyürqo tərəfindən fiziokratizmin inkişafını və onun dəyər,kapital,əmək haqqı, siniflər haqqında fikirlərini izah edin(20)

Fiziokratlar məktəbinin tarixi inkişafında Ann Rober Jak Tyürqonun xüsusi xidmətləri olmuşdur. Çox maraqlı olan əsərində Tyürqo fiziomratların doktrinalarını əks etdiri, lakin bir çox əlavələr və şərhlər də fiziokratların fikirlərinə əlavə edir. Məs: Tyürqo qət edirki, ticarətin özünün mövcud olması torpağın qeyri bərabər bölüşdürülməsinin nəticəsidir. Əgər torpaq bərabər bölüşdürülsəydi onda hər kəs özünə lazım olan yemək şeyləri əldə edə bilərdi

Tyürqo göstərirdiki, işçilərin arasında olan rəqabət min dərəcədə məhdudlaşdığına görə həyat min yaranır, yaşayış vasitələri istehsal edilir və əmək haqqı meydana çıxır. Beləliklə, sahibkarlarla fəhlələr arasında seçmə üsulu tətbiq edirlər və kim ən az əmək haqqı ilə işləməyə razılıq verərsə onları işə götürürlər. Torpaq isə əksinə, adamlardan asılı olmayaraq və onların bir-birləri ilə razılığı olmadan işçilərə bilavasitə əməklərinin qiymətini verir. Torpaq adamlarla ticarət etmir, Onları məcburiyyətə çəkmir. Torpaq adamların alacaqları əmək haqqı barədə onlarla razılığa girmir. Digər tərəfdən, torpağın verəcəyi hər hansı bir məhsul qabaqcadan torpaqla razılaşdırılmır və insanların gündəlik əməklərini torpaq qiymətləndirmir

Nəhayət, Tyürqo iddia edir ki, cəmiyyəti üç sinfə bölmək zərurəti yaranır. O, belə bir sxema irəli sürür ki, cəmiyyət aşağıdakı siniflərdən ibarətdir: məhsuldar sinif, əmək haqqı yaradanlar sinfi və sərbəst sinif. Belə bir şəraitdə öz əməyinə görə əkinçilər də mükafatlandırılırlar, yəni əmək haqqı alırlar (sənətkarlar kimi). Əkinçiliklə məşğul olanlar və sənətkarlar çox istehsal edirlər.Tyürqo göstərirdi ki, sənətkarlar özləri və başqaları üçün heç bir gəlir yaratmırlar. Tyürqo torpaqdan əldə edilən gəlirin beş üsulunu izləmişdir: muzdlu əmək sisteminin müxtəlifliyi, köləlik, təhkimçilik, yarılığa işləyənlər, qeydə alınan icarədarlıq

Dəyərlilik təhlilinə xüsusi diqqət verərək Tyürqo göstərirdi ki, puldan gəlir əldə etmək və ya faiz götürməklə əməksiz və torpaqsız varlı olmaq olur. O, mübadiləni tələbatların qarşılıqlı olması ilə əsaslandırırdı. Qızılı və gümüşü adi əmtəə kimi izah edən Tyürqo, qeyd edirdi ki, hər bir əmtəə pulun ikili keyfiyyətinə malikdir. Çünki pul vasitəsilə əmtəələrin dəyərliliyi ölçülür, pul vasitəsilə əmtəələrin dəyərliliyi ifadə olunur. Lakin öz keyfiyyətliliyinə, bölünmə qabiliyyətinə görə qızıl və gümüş pul rolunu oynamışlar. Bu proses şeylərin təbiəti ilə baş vermiş və burada razılıqlar və qanunlar heç bir rol oynamamışdır.

Tyürqonun əsərində kapital problemi xüsusi yer tutur. Tyürqoya görə, torpağın alınması kapitalın ilkin mənimsənilməsi deməkdir. Torpağın qiymətini torpaqdan alınan gəlirə bərabər tuturdu. Mənfəət əldə etmək məqsədilə sənaye müəssisələrinə sərf edilən kapitalı o ikinci hadisə hesab edirdi. Onun fikrincə, kapitalist öz əməyinə görə əmək haqqı almalıdır. Buna görə də kapitalist qayğıkeş olmalı, risk

etməli və nəhayət öz bacarığını göstərməlidir. Əgər bu belə olmazsa onda kapitalist öz əməyinə görə gəlir əldə edə bilməyib yaşaya bilməz. Mənfəətin əldə edilməsi Tyürqoya görə zəruridir ki, kapitalist istehsal alətləri alır və bu alətlər sonradan aşınırlar, mal-qara-qoşqu alətləri saxlanılmalıdır, xammala xərc çəkilməli-dir. Əgər kapital çatışmazlığı olarsa onda kapitalistlər torpağı kəndlilər vasitəsilə becərməlidirlər. Məhz buna görə də Tyürqo belə bir nəticəyə gəlirdi: ancaq kapital iri əkinçiliyi yarada bilər, torpağa daima "muzdlu dəyərlilik" verər və sahibkara çoxlu gəlir gətirər.

34. P.Buagilberin sosial iqtisadi islahatlarını, əmək dəyər, rəqabət və optimal qiymət nəzəriyyələrini,pulsuz əmtəə təsərrüfatı konsepsiyasını, böhranlar məsələsini izah esin(20)

Fransada klassik iqtisad elminjn yaradıcısı Pyer Buagilber olmuşdur. O, öz konsepsiyasını demək olar ki, Petti ilə eyni bir zamanda bir birilərindən asılı olmadan yaratmışdır.

Buagilber iqtisadiyyatın yüksəlişinin, ölkənin və xalqın rifah halının yüksəldilməsinin yolunu iqtisadi islahatların aparılmasında görmüşdür. Buagilber bu islahatların əsasına özünün nəzəri baxışlarını qoymuş, bununlada, o özünün nəzəri müddəalarını praktikaya tətbiq , təklif etmiş olduğunu siyasətin əsaslandırılmasında istifadə etmişdir. Buagilber Fransada əmək dəyər nəzəriyəsinin banisi olmuşdur. O bazar qiymətlərinin arxasında “həqiqi qiymət” axtarmışdır. Bu qiymətin kəmiyyətinin əmək məsrəfi ilə müəyyən olunduğunu müəyyən etmişdir. O göstərir ki, iqtisadiyyat əmtəələrin öz həqiqi qiymətini tapa bildiyi azad rəqabət şəraitində daha yaxşı inkişaf edir. O hesab etmişdirki, azad rəqabətin köməyi ilə iqtisadiyyat tarazlıq vəziyyətində gəlir, əmtəələr öz həqiqi dəyərini tspır və əmək sahələr arasında optimal bölünür

Buagilber optimal qiymət dedikdə, orta hesabla hər bir sahədə istehsal xərclərini ödəyən və müəyyən mənfəəti təmin edən qiymətlərdir. Onları mövcudluöu şəraitində əmtəələrin satılmssı prosesi pozulmur, daima baş verir, sabit istehlak tələbi saxlanılır, pul tədiyyə dövriyyəsinə xidmət edir və büdcə çevrilmir.Buagilber taxıla dövlət tərəfindən qoyulan maks qiymətlərin qoyilmasını rəqabət azadlığının pozulması kimidə qiymətləndirmişdir

Buagilberin istehlak xərclərііnə istehsalın və sərvətin artımının əsas amili kimk baxmışdır. O hesab edir ki, əgər istehlaj xərclərinin axını yavaşıyırsa, onsa əmtəələrin istehsalı və satışıda azalacaqdır. Əgər kasıblar çox qazansalar və vergi üçün az pay versələr, bu axın ləngiməz, əksinə varlılar isə gəliri toplamağa, onu avara yığıma yönəltməyə meyillidirlər, bununla da onlar iqtisadiyyatda durğumluq yaradırlar.

Buagilber özünün “Sərvətin, pulun və verginin təbiəti haqqında düşüncə” əsərində iqtisadi böhranlar zamanı nələrin baş verdiyini obrazlı şəkildə belə şərh etmişdir: adamalr nemətlərin nəinki çatışmamasından, eyni zamanda artıqlığından da ölə bilərlər. Buagilberə görə bütün alıcı və satıcılar “ zənginlik zənciri” içində bir biri ilə sıx şəkildə bağlanmışdır.

35. A.Smit təliminin yaranmasının tarixi şəraitini, elmi sistemini, “İqtisadi azadlıq” , “Görünməz əl” prinsipini xarakterizə edin.(10)

İlk dəfə olaraq A.Smit iqtisadiyyatın insanların iradəsindən asılı olmayan obyektiv iqtisadi qanunların fəaliyyət göstərdiyi bir sistem olması haqqında təlim işləyib hazırlayır və dövlətin iqtisadi siyasətinin bu qanunlara əsaslanmasını zəruri hesab edirdi.

A.Smitin bu ideyası iqtisadi fikir tarixinə “görünməyən əl” təlimi kimi daxil olub. Bu təlimə görə sərbəst iqtisadiyyat şəraitində hər hansı bir şəxsin özü üçün qazanc əldə etməyə, başqa sözlə mənfəət götürməyə yönəldilən fərdi siyasəti son nəticədə hərc-mərcliyə deyil, bazar ünsürləri vasitəsi ilə cəmiyyətdə qayda-qanun yaradılmasına səbəb olur və “gözə görünməyən əl” vasitəsi ilə fərdi mənafe ümumi mənafeyə uyğunlaşdırılır.

Smitin təliminə görə bazar iqtisadiyyatı “görünməyən əl” vasitəsi ilə özü-özünü avtomatik tənzimləyən bir sistemdir. Buna görə də o, iqtisadi proseslərə dövlətin müdaxilə etməsini məqsədəuyğun saymırdı. Beləliklə, iqtisadiyyatı çox incə surətdə tənzimləyən “görünməyən əl” məhz özü-özünə fəaliyyət göstərən elə bir qayda yaradır ki, bazar iqtisadiyyatı onun vasitəsi ilə qarışıqlığa qarşı dura bilir.

A.Smit insana cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi kimi baxmış və qeyd etmişdir ki, insanlar öz mənafelərini güdməklə eyni zamanda cəmiyyətin inkişafına, onun məhsuldar qüvvələrinin artmasına əhəmiyyətli şərait yaratmış olurlar. Onun fikrincə əgər hər bir fərdə öz mənafeyini, öz qazancını ağıllı surətdə güdmək imkanı verilsə, onda bu, bütün cəmiyyətin sərvətinin artmasına, çiçəklənməsinə kömək edər.

A.Smit qeyd edir ki, insanların öz maddi vəziyyətini yaxşılaşdırmağa təbii surətdə çalışmaları elə bir güclü stimuldur ki, hətta “İnsan qanunlarının ağılsızlığının insanın fəaliyyətini bu qədər tez-tez çətinləşdirdiyi yüzlərlə acınacaqlı maneəçilikləri aradan qaldırmağa qadirdir”. Bununla A.Smit insanın “təbii azadlığını” yəni, işçi tutmaq, istehsal və istehlak etmək, almaq və satmaq azadlığını məhdudlaşdıran merkantilizmə qarşı kəskin çıxış edir.

A.Smitin iqtisadi nəzəriyyəsinin əsasını rəqabət azadlığı prinsipi təşkil edir. O, azad rəqabətin söndürülməsini iqtisadiyyatın sərbəst inkişafı üçün böyük fəlakət hesab edir. Rəqabət azadlığı pulun, kapital və əməyin hərəkət, yerdəyişmə azadlığı şəraitində cəmiyyətin ehtiyatlarından ən səmərəli və optimal şəkildə istifadə olunacaqdır.

37. D.Rikardonun elmi sistemi, dəyər və bölgünəzəriyyələrini şərh edin.(5)

D.Rikardonun Dəyər nəzəriyyyəsi

1.Rikardo əmək – dəyər nəzəriyyəsinin tərəfdarı idi. Bu nəzəriyyə kapi-talizm ücün daha tipik, ən ümumi olan əmtəə münasibətlərini əks etdirir. 2.Əmtəənin dəyəri onun istehsalına cəkilən əməklə düz, əmək məhsuldarlıqı ilə tərs mütənasibdir. 3.Əmtəənin dəyərinin müəyyən edilməsində fərdi və ictimai zəruri əmək, habelə sadə və mürəkkəb əmək fərqləndirilməlidir. 4.Əmtəəninin təbii dəyəri – sərf edilən canlı və maddiləşmiş əməklə ölcülür. Lakin əmtəənin qiymətinə əmək məsrəflərindən başqa digər amillər, məsələn, tələb və təklif təsir edə bilir. 5.Faydalılıq nəzəriyyəsi. Faydalılıq (istehlak dəyəri), mübadilə dəyə-rinin vacib şərtidir, lakin onun olcü meyarı deyil. Faydalılıq əmtəələrin nadir olması, az tapılması, təkrar istehsal oluna bilməməsi ilə əlaqədar-dır. (heykəllər, şəkillər, kitablar, tarixi əsərlər, qədim pullar və s.) D.Rikardo iqtisadi hadisələrin tədqiqinin elmi metodunun işlənməsində mühüm addım atmış və siyasi iqtisad tarixində ilk dəfə olaraq kapitalizmin iqtisadi nəzəriyyəsinin əsasına anlaqlı şəkildə əmək-dəyər nəzəriyyəsini qoymuşdur ki, bu də kapitalist münasibətləri üçün ümumi, xüsusilə də əmtəə münasibətləri üçün tipik olan xüsusiyyətləri əks etdirir. Rikardonun kapitalizmin təhlilində ilk dəfə şüurlu olaraq əmək-dəyər nəzəriyyəsinə əsaslanması məsələni əhəmiyyətli şəkildə dəyişmiş və kapitalist iqtisadiyyatının fərdi, eləcə də xüsusi hadisələrini deyil, onların daxili əsası nöqteyi nəzərdən məcmu halda elmi təhlilinə şərait yaratmışdır. İqtisadi hadisələrə yeni baxış metodu həmçinin bir çox hallarda Smitin iqtisadi ziddiyyətlərinin aradan qaldırılmasında Rikardoya imkan vermişdir.

38. D.Rikardonun renta, pul, “Müqayisəli üstünlük” nəzəriyyəsini xarakterizə edin. (5)

“Siyasi iqtisadın və vergi qoyulmasının əsasları” adlı əsərində pul tədavülü, kredit və vergi nəzəri məsələlərini izah etmişdir. D.Rikardo bölgü nəzəriyyəsində istehsalı bölgü ilə vəhdətdə qəbul edir, siyasi iqtisadın başlıca vəzifəsini bölgünü idarə edən qanunların öyrənilməsində görürdü.

D.Rikardonun renta nəzəriyyəsi, öz ölkəsinin pul tədavülü sisteminin təhlili və müqayisəli üstünlük nəzəriyyəsi də əhəmiyyətli yer tutur.

Renta torpaqdan istifadəyə görə haqdır, belə ki, torpaqın həcmi məhduddur, o, keyfiyyətcə fərqlidir; əhali artdiqca isə becərilməyə daha pis, yəni daha aşağı keyfiyyətli və az əlverişli torpaq sahələri daxil olur. Kənd təsərrüfatı məhsullarının qiyməti pis torpaq sahələrindəki əmək məsrəfləri ilə müəyyən olunur. Orta və yaxşı torpaqlar əlavə gəlir verir ki, bu həmin torpaqlardakı istehsal xərclərindəki fərq kimi çıxış edir. Əldə olunan əlavə gəlir renta formasında torpaq sahiblərinə catır.

Rikardo rentanın mənbəyini torpağa tətbiq olunan əməkdə görür. Rikardo torpaqın münbitliyinin azalması qanununu, diferensial renta I və II – ni qəbul edir, mütləq rentanı isə inkar edir.

Rikardo "Pulun kəmiyyət nəzəriyyəsi" mövqeyindən cıxış edirdi. Başqa sözlə, pulun dəyəri tədavüldə olan pulların kəmiyyəti ilə müəyyən edilir. Pul nəzəriy-yəsinin əsasında əmək- dəyər nəzəriyyəsi dayanır. Qiymətli məhsullar xüsusi növ əmtəələridir, onların dəyəri isə istehsallarına cəkilən əmək məsrəfləri ilə ölcülür. Qızıl mahiyyət etibarı ilə dəyərin nişanəsidir və qızıl pullar kaqız pula dəyər nişanəsi kimi dəyişdirilə bilər. Sabit pul tədavülü iqtisadiyyatın inkişafının mühüm şərtidir və bu sabitlik yalnız qızıla əsaslanan pul sistemi ola bilər.

Rikardonun "müqayisəli üstünlük" nəzəriyyəsi Nəzəriyyənin mahiyyətini beynəlxalq əmək bölgüsünün və ölkələrin ayrı-ayrı məhsulların istehsalı üzrə ixtisaslaşmasının üstünlüyünün əsaslandırılması təşkil edir.

İxtisaslaşma təkcə təbii və iqlim şəraitinin əlverişliyi ilə müəyyən edilmir; hec də vacib deyildir ki, ölkə məhsul üzrə mütləq üstünlüyə malik olsun, yəni məhsul vahidinə düşən əmək məsrəflərinin digər ölkəyə nisbətən daha az olması kimi üstünlüyə malik olsun. Kifayətdir ki, ölkə müqayisəli üstünlüyə malik olsun, yəni digər məhsullarla müqayisədə konkret məhsul üzrə ölkədə cəkilən xərclər digər ölkələrdə həmin məhsulun istehsalına cəkilən xərclərdən daha aşağı olsun. Nəticədə bu ölkə xərclərin müqayisəli nisbətində bu məhsulun istehsalında ixtisaslaşma sayəsində üstünlük əldə edə bilər.

Rikardo demək olar ki, ilk iqtisadçıdır ki, xarici ticarəti daxili ticarətdən ayıraraq xüsusi nəzəriyyə kimi irəli sürür. Kapitalın ölkələr arasında hərəkətə qabil olmaması, əmək-dəyər nəzəriyyəsinin milli sərhədlər vasitəsilə aparılan ticarətə aid edilməməsi bu nəzəriyyənin əsasında durur. Belə hesab edilir ki, xarici ticarətdə ölkələr arasında mənfəət norması bərabərləşir. Belə olan halda ölkələr arasında ticarət hərəkəti tənzimləyicisinin nə olacağı, barter ticarətinin nə əsasda müəyyən ediləcəyi suallarına cavab axtarılır və müqayisəli xərclər prinsipinə üstünlük verilir. Müqayisəli xərclər dedikdə bu və ya digər əmtəələr üzrə çəkilən xərclərin bərabər, mütləq və müqayisəli səviyyələri nəzərdə tutulur. Rikardoya görə əgər mövcud ölkə həm yulafı, həm də şərabı az xərclə istehsal edirsə, lakin şəraba nisbətən yulafda onun üstünlüyü çoxdursa, o zaman xərclərin müəyyən nisbətində və mübadilənin müəyyən proporsiyalarında onun üçün, yalnız yulaf, başqa ölkə üçün yalnız şərab istehsal etmək hər halda daha faydalı olar. Müqayisəli xərclər prinsipi və ya müqayisəli üstünlük prinsipi bunu nəzərdə tutur. Bu fərdi mənafe ardınca getmək ən təəccüblü formada hamının ümumi rifahı ilə bağlıdır.

40.K.Rodbetsun iqtisadi konsepsiyasını, dəyər,Mənfəət norması və torpaq rentasını açıqlayın(10)

Karl Rodbertus - Yagetsov (1805-1875-ci illər) alman iqtisadçısı, hüquqşünas, dövlət sosializmi nəzəriyyəsinin banilərindən biridir.1848-ci il İnqilabı dövründə Frankfurt parlamentinin üzvü, mədəniyyət və maarif naziri.Rodbertusun iqtisadi konsepsiyası D.Rikardonun və utopik sosializmin

güclü təsiri ilə formalaşırdı, kapitalizmin dərin tənqidindən ibarət idi və eyni zamanda Rodbertus bu konsepsiyada islahatlar yolu ilə sosial problemlərin həlli üçün çıxış edirdi.

Rodbertus D.Rikardonun əmək dəyəri nəzəriyyəsinin tərəfdarı olmasına baxmayaraq, əmtəənin dəyərini bilavasitə fəhlə pulu adlandırılan pulların buraxılması yolu ilə iş vaxtında qanuni olaraq ifadə etməyi təklif edirdi. Beləliklə, onun hesab etdiyi kimi, dövlətin köməyi ilə qiymətin və dəyərin bərabərləşməsinə nail olmaq olardı.Rodbertus iqtisadi konsepsiyasında mənfəətin nəzəriyyəsi və normalarına, torpaq rentası və fəhlə sinfinin vəziyyəti məsələlərinə toxunurdu.

D.Rikardonun əmək dəyəri nəzəriyyəsindən yalnız əməyin dəyəri doğurduğu haqqında postulatı çıxararaq o, belə nəticəyə gəlir ki, torpağa və kapitala olan mülkiyyət torpaq mülkiyyətçilərinin və kapitalistlərin əməyi ilə yaranmır. Mülkiyyətin bu növlərini Rodbertus "gəlir gətirən, sahiblərinə renta verən, lakin onların öz şəxsi əməyi sərf olunmayan mülkiyyət" kimi müəyyən etmişdir.

Rodbertus "ümumiyyətlə renta" kateqoriyasını tətbiq edir. O, hesab edirdi ki, torpaq rentasının və kapitalist mənfəətinin hökmran xarakteristikası odur ki, hər iki forma zəhmətsiz gəliri təşkil edir. Torpaq rentasının yaranma mənbəyini Rodbertus torpağa olan xüsusi mülkiyyət hesab edirdi. Bundan başqa, o tamamilə düzgün olaraq torpaq rentasının torpağa mülkiyyət obyekti kimi inhisarla əlaqəsini üzə çıxarmışdır.

Rodbertusun "dövlət sosializmi" nəzəriyyəsi xüsusi maraq doğurur.

Rodbertusa görə, insan cəmiyyəti öz təkamülündə üç aşağıdakı mərhələdən keçir: 1) antiklik 2) feodalizm və kapitalizm 3) kommunizm. Bu mərhələlər kapitalizmin inkişaf səviyyəsi və istehsal vasitələrinə mülkiyyətin xarakteri ilə müəyyən edilir. Antikliyin əsasını o dövrün əsas məhsuldar qüvvəsi olan insan-qula olan mülkiyyət təşkil edirdi, feodalizm və kapitalizm dövrləri torpağa və kapitala, kommunizm dövrü isə əməyə və əmək haqqına olan mülkiyyətlə xarakterizə olunur.

41. Yeni alman tarixi məktəbinin metodologiyasını, Q.Şmollerin, L.Bryukerin tədqiqat və baxışlarını izah edin.(10)

Almaniyada tarix məktəbi XIX əsrin 40-cı illərində meydana gələrək, XIX əsrin ortalarında yarandı. Bu məktəb F.Listin iqtisadi təhlilini, həmçinin Almaniyada XIX əsrin əvvəllərində yaranmış hüquq tarix məktəbinin ideya motivlərini qəbul edib inkişaf etdirdi.

Almaniyanın yeni tarix məktəbinin nümayəndələri Q.Şmoller (1838-1917-ci illər), L.Brentano (1844-1931-ci illər) və K.Büxerdir (1847-1930-cu illər).Yeni tarix məktəbinin rəhbəri Q.Şmoller alman iqtisadçısı və tarixçisi, Almaniyanın dövlət və ictimai xadimi, Qall, Strasburq və Berlin Universitetlərinin professoru olmuşdur.

Şmollerin başlıca əsəri "Xalq təsərrüfatı haqqında ümumi təlimin əsasları" (1900-1904-cü illər) rus dilində tərcüməsi "Xalq təsərrüfatı, xalq təsərrüfatı haqqında elm və onun metodları: təsərrüfat, qayda-qanun və hüquq, əmək bölgüsü" Şmoller tarix məktəbinin ideyalarına əsaslanaraq iqtisadi təzahürlərə təsviri, empirik yanaşmaya və faktiki materialın toplanmasına üstünlük verərək elmi abstraksiyaların rolunu inkar edirdi.Şmollerin rəyincə iqtisadçılar kifayət qədər faktiki material toplaya bilmədikləri üçün yalnız bir neçə yarım həqiqət və mübahisəli ümumiləşdirmə irəli sürə bilmişlər. Şmoller hesab edirdi ki, iqtisadi nəzəriyyənin yaranmasından əvvəl konkret-tarixi tədqiqat aparılmalıdır, beləki, yalnız dərindən, genetik yanaşma sosial təzahürlərin səbəb bağlılıqlarını müəyyən etməyə imkan verir. Şmoller israr edirdi ki, iqtisad elmində tədqiqat obyekti təsərrüfat subyektlərinin niyyətləri, texnikanın inkişaf səviyyəsi, yanaşı fəaliyyət göstərən sosial institutların xarakteri, təbiət və başqa şərtlərdir, belə ki, iqtisadi subyektlərin hərəkəti müxtəlif amillərin qarşılıqlı təsirinin nəticəsidir

L.Brentano - Breslav, Strasburq, Vyana, Leypsiq və Münxen Universitetlərinin professoru, iqtisadi və sosial siyasət, iqtisadiyyat, tarix, fəhlə hərəkatı məsələləri üzrə çoxsaylı əsərlərin müəllifi. Öz iqtisadi baxışlarında həmçinin iqtisad nəzəriyyəsindən imtina edilməsini təbliğ edirdi. Qeyd etmək lazımdır ki, iqtisad nəzəriyyəsində abstrakt metoda qarşı mübarizədə həm Şmoller, həm də Brentano klassik məktəbin istehsal münasibətlərinə və deməli kapitalizmin iqtisadi kateqoriyalar məcmusunu əbədi, dəyişməz elementlər kimi nəzərdə tutan metodoloji zəifliklərindən istifadə etmişlər.

Yeni tarix məktəbinin nümayəndələri müasir kapitalist ölkələrinin təsərrüfat inkişafını tədqiq edərkən bu ölkələrin təsərrüfat quruluşunun dəyişkənliyini sübut etmiş və cəmiyyətin iqtisadi həyatının inkişafının və obyektiv iqtisadi qanunların qanunauyğun xarakterini inkar etmişlər.

Brentano yuxarıda qeyd olunan mühazirədə merkantilistləri hətta siyasi iqtisadın klassiklərindən yüksəkdə tuturdu, belə ki, onun fikrincə, merkantilistlər sənaye və ticarətə dövlət təsirinin müxtəlif üsullarını tədqiq edərək, iqtisadi qanunlar üzə çıxarmağa cəhd etməmişlər.

42. Zombartın ideyalarında Marksist təliminin təngidi və inkarını təhlil edin(10)

Verner Zombart (1863-1941-ci illər) - alman iqtisadçısı, sosioloq və tarixçi, Breslav və Berlin Universitetlərinin professoru Şmollerin şagirdi olub, bir çox fikirlərində siyasi iqtisadın tarix məktəbinin tərəfdarı idi. Lakin Zombart iqtisad elmində tarixi və abstrakt tədqiqat metodlarını birləşdirməyə cəhd edərək, tarix məktəbindən qabağa getmişdir. Və o, buna nail olmuşdur.

Zombart kapitalizmin iqtisadi inkişaf perspektivlərini nəzərdən keçirərək, "sosial plüralizm" nəzəriyyəsini irəli sürmüşdür. Təsərrüfat formalarının inkişaf tarixindən Zombart belə bir nəticəyə gəlir ki, cəmiyyət inkişaf etdikcə təsərrüfat formaları da artır, belə ki, köhnə formalar itmir, əksinə, yenilərilə yanaşı fəaliyyətlərini davam etdirirlər. Məsələn, orta əsrlərdə Avropada həm kəndli təsərrüfatı, həm biyar - mülkədar təsərrüfatı, həm də şəhər sənətkarlığı paralel mövcud olmuşdur. Sonra kapitalizm yaranmışdır, lakin natural təsərrüfat və sənət mövcud olmaqda davam etmişdir. Zombart belə nəticə çıxarır ki, gələcəyin cəmiyyətində aşağıdakı 6 forma mövcud olacaqdır: kapitalizm, kooperativ təsərrüfat , ictimai təsərrüfat (bura Zombart dövlətə və başqa ictimai təşkilatlara, məsələn, şəhər özünüidarə təşkilatlarına aid olan müəssisələri də daxil edir), natural təsərrüfat, sənət, kəndli təsərrüfatı.

Zombart öz əsərlərində kapitalizmlə sosializmin yaxınlığını sübut etməyə cəhd edirdi. O, deyirdi ki, sabitləşdirilmiş və tənzimlənmiş kapitalizmlə texniki cəhətdən təkmilləşmiş, səmərələşdirilmiş sosializm arasında fərq çox da böyük deyildir və deməli, insanların və insan mədəniyyətinin taleyi üçün təsərrüfatın kapitalistcəsinə, və ya sosialistcəsinə təşkil olunacağı az və ya çox dərəcədə əhəmiyyətsizdir. 1934-cü ildə V.Zombartın "Alman sosializmi" əsəri nəşr olunur ki, burada o, iqtisadiyyatın dövlət tənzimlənməsi sistemini nəzərdən keçirir. Almaniya üçün "dövlət sosializmi" şəklində olan sosial idealı o, planlı və ya mütəşəkkil kapitalizm kimi təsəvvür edirdi. Dövlət sosializmi modelinin formalaşması üçün Zombart iqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyini əsas hesab edirdi. O, iqtisadiyyatın gələcək inkişafını və millətin rifahının təmin edilməsini iri istehsalın məhdudlaşdırılması, xırda biznesin və əkinçiliyin hər cür dəstəklənməsi ilə bağlayırdı ki, bu da Zombartın fikrincə, labüd olaraq əhalinin deproletarlaşmasına gətirməlidir.

43. T.Maltusun metodologiyası. Onun “əhali sakinliyi” qanunu, dəyər, mənfəət və reallaşma nəzəriyyəsini izah edin(20)

T.Maltus zadəgan ailəsində anadan olmuşdur. Kembric universitetini bitirdikdən sonra o keşiş, 1807-ci ildən isə kollecdə siyasi iqtisad professoru olmuşdur. 1798-ci ildə çoxsaylı hücumlar predmeti olan "Əhali qanunu haqqında təcrübə" adı altında anonim şəkildə çap etdirilmiş kitabı çıxmışdır

Maltusun əhali nəzəriyyəsi əhali artımının cəmiyyətin ərzaq resurslarından sərt asılılığını müəyyən etdi, yaşayış minimumu ilə müəyyən edilən əmək haqqı nəzəriyyəsini əsaslandırmağa kömək etdi. Maltus öz nəzəriyyəsi ilə klassiklərin siyasi iqtisad haqqında bütün təsəvvürlərinə əsaslanan nə isə bir standart müəyyən etdi. Əhalinin optimal ölçüləri konsepsiyası əhalinin dəyişməsi haqqında mühakimə yürütməyə imkan verir. XIX əsrin ikinci yarısında doğumun aşağı düşməsi iqtisadçıların əhali problemlərinə marağını azaltdı və onlar ikinci dünya müharibəsindən sonra zəif inkişaf etmiş ölkələrdə əhali probleminə hazırlıqsız oldular.

1815-ci ildə T.Maltus elmi araşdırmalarını davam etdirərək, ilk sözləri A.Smitin məşhur "Xalqların sərvətləri"nin sərlövhəsini təkrarlayan daha bir əsər nəşr etdirdi. Bu, "Təbiət və torpaq rentasının artması haqqında tədqiqat" kitabı oldu. O, həmin əsərdə rentanın təbiətindən irəli gələrək, onun formalaşmasının və artımının mexanizmini açmağa, cəmiyyətdə istehsal olunan məcmu məhsulun reallaşdırılmasında gəlirlərin bu növünün əhəmiyyətini əsaslandırmağa cəhd edirdi. Lakin renta və iqtisadiyyatın bəzi başqa problemləri haqqında son mühakiməsini sonradan 1820-ci ildə yürütmüşdür. Maltusun Rikardodan irəliyə getdiyi əsas aspekt - onun məcmu ictimai məhsulun realizə problemlərinin tədqiqatlarıdır. XIX əsrin əvvəllərində "klassik məktəbin" iqtisadi nəzəriyyəsinin nail olduğu səviyyəyə uyğun olaraq, yığım istehsalın gələcək artımının investisiyalaşdırılmasını təmin edən əsas problem hesab olunurdu. İstehlakdakı mümkün çətinliklər nəzərə alınmırdı və T.Maltus "Prinsiplər"də ictimai məhsulun yaradılmasına və realizə edilməsinə kömək edən "üçüncü şəxslər"i haqqında o dövr üçün gözlənilməz olan müddəanı irəli sürür. Müasir iqtisadi nəzəriyyə nöqteyi-nəzərindən Maltusun "üçüncü Şəxs"lərinin təqdim etdikləri sorğu vasitəsilə tam reallaşmasının mümkünlüyü haqqında konsepsiyası özünü doğrultmadı, lakin o, C.Keynsi antiböhran ideyaları və "səmərəli sorğu" amilləri ilə, "istehsal məhsulunun cəmiyyətin ara təbəqələrində" istehlakında rolu ilə silahlandırırdı.Maltus dəyərin əmək nəzəriyyəsinə qarşı əmtəənin həmin əmtəəyə alınan əmək dəyərinin Smit tərifi variantını qoymuşdur. Əməyin kəmiyyəti onun canlı maddiləşmiş əməyə və "avans edilmiş kapitala" mənfəəti ilə bu əmtəənin aid etdiyi istehsal xərcləri ilə müəyyən edilir. Məhz "üçüncü şəxs"lər kapitalistlərin mənfəətinin reallaşmasını mümkün edirlər. Mənfəətin "üçüncü şəxs"lərsiz reallaşmasının mümkünlüyü haqqında ideya sismondidən iqtibas etmişdir

44.S.Sismondinin milli gəlir, mənfəət, kapital, istehsal vəİstehlak haqqında baxışlarını, böhranlar konsepsiyasını, Siyasi iqtisadın predmetinə baxışını izah edin.(20)

Şarl Leonar Sismond və Sismondi (1773-1842) İsveçrənin Fransız hissəsində protestant keşişinin ailəsində anadan olmuşdur. O, böyük ədəbi irs qoymuşdur.

Sismondi öz nəzəriyyəsinin mərkəzində bazarlar problemini, böhranların reallaşdırılmasını qoymuş və cəmiyyətin sinfi strukturu ilə sıx bağlamışdır. Onun fikrincə, iki sinifli "xalis" kapitalizm cəmiyyəti qəddar böhranlara məhkumdur, o qurtuluşu "üçüncü şəxslər"də - ara siniflərində (kəndlilər, kustarlar, sənətkarlar) görür.Sismondinin dəyər, kapital və resurs nəzəriyyələri iqtisadi təlimlər tarixində özünəməxsus yer tutur. Smit və Rikardonun ardınca Sismondi əməyin sərvətin yeganə mənbəyi olduğunu elan edərək, əmtəənin dəyərini əməklə müəyyən edir. O, kapitalı istehsal ehtiyatı kimi, sərvətin mənfəət gətirən hissəsi kimi müəyyənləşdirir. Bu tərifdə o, kapitalın istehsal amili kimi nəzərdən keçirən mövqeyində durur. Kapitalın bu cür tərifdən irəli gələrək, Sismondi mənfəətin kapitalın özünün məhsuldarlığının nəticəsi olduğu tərifini verir. Sismondidə mənfəətin başqa şərhləri də - fəhlə əməyinin məhsulundan çıxarılması və ya kapitalistin qənaətkarlığı üçün mükafat kimi kapitalistin gəlirini ifadə edən şərhlər də vardır.

Kapitalizmdə aşağı əmək haqqını Sismondi kapitalist münasibətlərilə əlaqələndirmişdir. O, zənn edirdi ki, əmək haqqı fəhlə əməyinin məhsulunun bütün dəyərinə bərabər olmalıdır, o, həmçinin əhalinin artımı ilə əmək haqqı arasında birbaşa əlaqəni də görürdü. Sismondi əhalinin artımını gəlirlər

çərçivəsi ilə məhdudlaşdırmağı təklif edir və uşaqların doğulması valideynlərin gəlirləri ilə təmin olunmayıbsa, kilsəni fəhlələr arasında nigahları pisləməyə çağırırdı.Sismondinin təkrar istehsal və böhranlar nəzəriyyəsi onun bütün iqtisadi təlimi əks olunan güzgüdür, müəyyən mənada bu onun keçmişə qayıdış utopik proqramıdır. Təcrid olunmuş insanın tarixinin bütün bəşəriyyətin tarixi olduğunu hesab edərək, o adi əmtəə istehsalçıları və kapitalist cəmiyyətləri arasındakı fərqi yalnız kəmiyyət fərqində görürdü. O, istehlakı kapitalist istehsalının məqsədi hesab edirdi. Sismondinin reallaşdırma və böhranlar haqqındja şərhi belədir. Bu problemlərə o, birlikdə baxmışdır. O, özünü Smitin və Rikardonun istehsal nəzəriyyəsinin əleyhdarı elan etmişdir. İctimai məhsulun dəyərini gəlirlərə gətirərək, Sismondi hesab edirdi ki, bütöv istehsal əmtəəsinin reallaşdırılması üç

45. Ceyms Millin nəzəriyyəsini, Con Millin kompromistlər siyasi iqtisadını, əmək, kapital haqqında baxışlarını, dəyər və banklar nəzəriyyəsini izah edin.(20)

Rikardo təliminin davamçısı Şotlandiyalı Ceyms Mil və C.R.Mak Kullox hesab olunur

C.Mill kapitalizimdə kapital ilə əmək arasındakı ziddiyyəti Seydən fərqli oıaraq əmək dəyər nəzəriyyəsi əsasında aradan qaldırmağa çalışmışdır. O kapitalı əmək ilə yanaşı əmtəənin dəyərinin mənbəyo elan edir. Onun bu fikrinin əsasında Rikardonun kapital yğılmış əmək olması haqqında müddəası durur. C.Milə görə kapitalın köməyi ilə əməklə istehsal olunan əmtəənin dəyərinə kapitalın dəyəri daxil edilməlidir. İstehsal prosesində iştirak edən maşınların, xammalın, yanaxağın dəyərini yığılmış əmək kapital kimi götürmüş və onlar işləyəərk dəyər yaratdıqlarını söyləmişdir

C.Mil D.Rikardo tərəfində aşkara çıxarılmış dəyər nəzəriyyəsi və orta mənfəət nəzəriyyəsi arasındakı, əmtəələrin ekvivalent mübadiləsi qanunu və əməklə kapital arasındakı bəlli olan qeyri ekvivalent mübadilə fakti arasındakı ziddiyyəti həll etməyə cəhd göstərərək hesab edir ki, bu mübadilə faktı kapitalistə öz əməyini deyil, məhsulda öz payını satır. London univeesitetinin professoru C.R.Mak Kulloxun əsas əsəri “Siyasi iqtisadın əsas prinsipləri” olmuşdur. O, kapitalist münasibətlərin sadə əmtəə təsərrüfatı münasibətlərilə eyniləşdirilmişdir. Mak Kullox maşın, heyvan və yaxud təbiət qüvvələri ilə baş verən fəaliyyətin də əmək kimi zühur etdiyini qeyd edir. Bununla o, Rikardonun sisteminin metedoloji əsası olan əmək dəyər nəzəriyyəsini inkar etmiş olur. O dəyər yaratmaq xüsusiyyətini bütün əmtəələrə aid edir. Digər tərəfdən də göstərir ki, “əmək sərvətin yeganə mənbəyidir” . Nəticədə isə adi əmtəə ilə iş qüvvəsi arasındaki fərqi müəyyən etmək mümkünsüz olur. Ona görə də Mak Kulloxda da mənfəət merkantilizimdəki kimi tədavülə, yəni qiymətin dəyəri ötməsindən əmələ gəlir. Onda mənfəət sadə əmyəə tədavülünün nətisi kimi çıxış edir. Mak kulloxun həm də cəmiyyətim iqtisadi həyatının bu və ya digər xalqın milli xüsusiyyətlərindən asılı olmayaraq ümumi xarakterə malik olan iqtisadi qanunlarla tənzimləndiyini qeyd etmişdir

Böhranlar nəzəriyyəsi Sismondinin iqtisadi təlimini tamamlayır. O, isitehsal və istehlakın uyğunsuzluğunu böhranların əsas səbəbi hesab edir və böranları istehlakın kifayət qədər olmaması ilə izah edirdi. O zənn edirdi ki, 100 xırda istehsalçı bir kapitalist və 99 fəhlədən xeyli çox istehsal edirlər

47. Marksist əmək-dəyər nəzəriyyəsini, əməyin ikili xarakterini, iş qüvvəsi əmtəəsinin istehlak dəyərini, gəlirlər konsepsiyasını, kapital və onun tərkibini izah edin.(10)

49. Marjinalizmin yaranması, inkişaf mərhələləri vəmetodoloji əsaslarını izah edin.(10)

XIX əsrin 70-ci illərində iqtisad elmində subyektiv-psixoloji istiqamət - marjinalizm meydana gəlmişdir. Marjinalizm - fransız sözü olub, mənası "həd" deməkdir. O iqtisadi hadisə və proseslərin təhlilində son kəmiyyətə, həddə üstünlük verir, faydalılıq həddi, məhsuldarlıq həddi, gəlirlilik həddi, məsrəf həddi və s. bu kimi iqtisadi kateqoriyaları öz tədqiqatının mərkəzində saxlayır. Marjinalizmin ideyalarının ilkin yaradıcıları və tədqiqatçıları Avstriyanın paytaxtı Vyana Universitetinin professorları

Karl Menger (1840-1921), Yevgeni Bem-Baverk (1864-1914) və Fridrix Vizer (1851-1926) olmuşlar. Məhz həmin səbəbdəndir ki, bu cərəyanın çox mühüm bir hissəsi hazırda Avstriya məktəbi adı ilə məşhurdur. Bununla yanaşı həmin məktəbin İngiltərədə Uilyam Stenli Cevons, İsveçrədə Leon Valras, Fransada Şarl Jid və s. kimi görkəmli tərəfdarları və davamçıları olmuşlar.

Avstriya məktəbi nümayəndələrinin və onların davamçılarının tədqiqatlarının əsas məzmunu odur ki, burada fərdin psixologiyası ictimai münasibətlərin əsasında saxlanılır, məhdud resurslar şəraitində subyektin öz mövcud tələbatlarını ödəmək üçün iqtisadi qərarları, davranışı əsas tədqiqat obyektinə çevrilir. Bu məktəbin yaranması o dövrdə geniş yayılmış klassik məktəbin bir sıra iqtisadi baxışlarının, başlıcası isə K.Marksın dəyər və izafi dəyər nəzəriyyəsinin tənqidi zərurətindən irəli gəlmişdir.

Avstriya məktəbi qarşısında dayanan ən mühüm məqsəd məhsulların faydasının (istehlak dəyərinin) istehlakçı tərəfindən onun arzu və istəyini, ilk növbədə hansı tələbatlarının ödənməsinə üstünlük verəcəyini aşkar etməkdir.

.Avstriya məktəbi belə hesab edir ki, istehlakçının davranışını başa düşmək üçün suyun, çörəyin, paltarın, mənəvi sərvətin dəyərini istehlakçının mövqeyindən qiymətləndirmək tələb olunur. Yalnız bu yolla onun bazarda necə çıxış edəcəyini, bu məhsullardan hansını, hansı ölçüdə, hansı ardıcıllıqla almağa çalışacağını bilmək olar.

Avstriya məktəbinin dəyər haqqında təliminin əsasında faydalılığı iqtisadi inkişafın əsas amilinə çevirən "faydalıq həddi" adlanan nəzəriyyə dayanır. Bu nəzəriyyəyə görə əmtəənin dəyərini onun son ədədinin faydalılığı, yəni mövcud əmtəə ehtiyatı şəraitində insanın öz əhəmiyyətinə görə axırıncı yerdə dayanan, mühüm olmayan tələbatını ödəyən son əmtəə vahidinin faydalığına verilən subyektiv qiymət müəyyən edir. "Son faydalıq" kimi səciyyələnən bu nəzəriyyəyə görə faydalıq özü də iki amildən asılıdır. Bu, əvvəla, tələbatın intensivliyidir, yəni tələbat nə qədər çox olarsa, məhsulun faydalığı da bir o qədər yüksəkdir; ikincisi isə məhsulun az tapılması, yəni nadirliyidir. Başqa sözlə desək, məhsula nə qədər az təsadüf edilərsə, onun faydalığı da bir o qədər yuxarıdır. Buna uyğun olaraq tələbatın ödənilməsi hüdudu bilavasitə mövcud nemətlərin kəmiyyətindən asılı olaraq bu və ya digər istiqamətdə dəyişilə bilər. Lakin tələbat özü də sabit kəmiyyət olmadığı üçün, o həmin dəyişikliyə də təsir edir.

50. Faydalılıq nəzəriyyəsini, G.Qossenin I və II qanununu, U.Cevonsun faydalılıq həddi nəzəriyyəsini izah edin(10)

Avstriya məktəbinin əsas ideyalarının formalaşmasında XIX əsrin əvvəllərində yaşamış istedadlı alman iqtisadçısı German Henrix Qossenin çox mühüm rolu olmuşdur. Onun məhsulun "son faydalığı" haqqında nəzəriyyəsində iki mühüm prinsip əks olunmuşdur ki, onlar da müasir iqtisad elmində Qossenin I və II qanunları adlanır. I qanuna görə subyektin sərəncamında olan nemətin kəmiyyəti artdıqca onun hər bir əlavə vahidinin son faydalığı da aşağı düşür, həmin sərvətlə təmin olunma həddindən artıq olduqda isə (son həddə çatdıqda) faydalıq sıfra çatır. Qossenin II qanununda göstərilir ki, istehlakın (tələbin) optimal quruluşu bütün əldə edilə bilən nemətlərin faydalığının tarazlığı şəraitində mümkün olur.

Qossenin fikrincə, konkret tələbatı ödəyən məhsulun kəmiyyətcə hər bir artımı özündən əvvəlki "nüsxəyə" nisbətən daha az faydalıdır. İqtisadi resursların məhdudluğu şəraitində isə insanın ən vacib tələbatının ödənilməsinə xidmət edən "məhsulun son nüsxəsi" vardır. Buradan isə belə bir nəticə çıxarılır ki, məhsulun qiyməti fərdin tələbatını ödəmək üçün vacib olan "son nüsxənin" faydası ilə ölçülür, deməli, əmtəənin dəyəri onun son faydalığı ilə müəyyən olunur.

Yeri gəlmişkən qeyd edək ki, Qossenin qanunları nəinki marjinalizmin Avstriya məktəbinin, eləcə də onun sonrakı iqtisadi məktəb və cərəyanların makroiqtisadi nəzəriyyəsində geniş istifadə olunmuşlar.

Avstriya məktəbinin ən fərqləndirici cəhətlərindən biri məhsulun qiymətinin formalaşması üçün mühüm rol oynayan amillərdən biri olan tələbə olan münasibətdir. Təklif amilinin mühüm rolundan çıxış edən klassik məktəbdən fərqli olaraq Avstriya məktəbi belə hesab edirdi ki, məhz tələb (faydalıq) istehsalın (təklifin) parametrlərini müəyyən edir. Buna görə də o, əsas diqqəti təklifin deyil, ayrı-ayrı iqtisadi subyektlərin irəli sürdüyü tələbin öyrənilməsinə yönəltmişdir. Bu məktəbə görə tələbin subyektiv kəmiyyəti sərvətin faydalığından asılıdır. Həm də faydalıq mütləq yox, nisbi anlayışdır. Bu, hər bir ayrıca subyektin konkret şəraitdə konkret tələbi, bu tələbi ödəmək üçün zəruri məhsulların kəmiyyəti və həmin məhsulların subyekt tərəfindən psixoloji baxımdan qiymətləndirilməsi və əldə edilməsi imkanları ilə bilavasitə əlaqədardır.

51. Avstriya məktəbi: K.Menger, Z.Bem-Baverk və F.Vizerin təhlilinin metodoloji xüsusiyyətlərini, obyektiv **və subyektiv qiymət nəzəriyyəsini izah edin(10)**

K.Menger tədqiqatının metodoloji bazasının fərqli xüsusiyyətlərindən birini mikroiqtisadi təhlil və fərdiyyətçilik təşkil edir. İqtisadi proseslərə belə bir mövqedən yanaşmaq ona cəmiyyətin iqtisadi münasibətlərini təcrid olunmuş (ələhiddə) şəkildə təsərrüfatçılıq edən subyekt baxımından təhlil etməyə imkan vermişdir.

K.Mengerin tədqiqatının əsas cəhətlərindən birini də iqtisadi nemətlərin ayrı-ayrı səviyyələrə bölgüsü təşkil edir. Onun fikrincə insanın ən zəruri, məsələn, ərzağa olan tələbatlarının bilavasitə ödənilməsi ilkin səviyyəli nemət üzərində sərəncam verməyi müəyyən edir. İkinci, üçüncü və daha uzaq səviyyəli nemətlərə malik olmaq üçün isə onları dolayı yollarla tələbatların ödənilməsinə cəlb etmək lazımdır. Menger yazırdı ki, əgər biz yüksək səviyyəli nemətlərə malik deyiliksə, həmin nemətlərin heç birini öz tələbatımız üçün istifadə edə bilmərik. Məsələn, çörək istehsalı üçün (yüksək səviyyəli nemət üçün) ikinci səviyyəli nemətlərə (yanacağa və suya) malik olmasaq, hətta digər zəruri nemətlərin mövcudluğu şəraitində də çörək istehsal edilə bilməz. Onun fikrincə, ilk əvvəl yüksək səviyyəli nemətlər istehlaka daxil olur. Yalnız müəyyən vaxt keçdikdən sonra bu nemətlər dəyişikliyə uğrayaraq daha aşağı səviyyəli sərvətlərə çevrilirlər. Menger qeyd edirdi ki, yüksək səviyyəli nemətlər əsasən istehsal üçün vasitələr şəklində çıxış edirlər.

Bem-Baverk Qossenin qanunlarından istifadə edərək istehlak dəyəri kimi mübadilə dəyərinin də məhsulların son faydalığı ilə subyektiv cəhətdən müəyyən olunduğunu sübut etməyə çalışırdı. O, subyektiv və obyektiv dəyər anlayışlarını bir-birindən fərqləndirmişdir. Subyektiv dəyər məhsulun alıcı və satıcı tərəfindən fərdi qiymətidir. Obyektiv dəyər isə bazarda rəqabət şəraitində formalaşan mübadilə nisbətidir. Məhz bu obyektiv və subyektiv dəyərlərin mübadilə prosesində qarşılaşdırılması nəticəsində məhsulun qiyməti meydana çıxır. Bem-Baverk qiymətin əmələ gəlməsi prosesini aşağıdakı kimi təsvir edir: əgər bazarda bir alıcı və bir satıcı olarsa, bu halda rəqabət olmur. Bu zaman alıcının təklif etdiyi subyektiv qiymətin maksimum, satıcının qiymətinin isə minimum səviyyələri mövcud olacaq, real qiymət bu hüdudlarda tərəddüd edəcəkdir. Şübhəsiz, burada əmtəənin qiyməti alıcı və satıcıların sövdələşmə bacarığından asılı olaraq bu və ya digər istiqamətdə dəyişə bilər. Lakin bazarda bir satıcıya qarşı öz aralarında rəqabət aparan bir neçə alıcı dayanarsa, bu halda rəqabət mübarizəsində qalib gələn alıcının qiyməti minimum, ən ağır şəkildə məğlub olan alıcının qiyməti isə maksimum həddi kimi müəyyən ediləcəkdir. Beləliklə, qiymət, qalib gələn alıcı ilə məğlub olan alıcının verdikləri qiymətin hüdudları daxilində müəyyən edilmiş olur. Nəticədə qiymət mübadilə zamanı əmtəənin alıcı və satıcı tərəfindən irəli sürülmüş subyektiv fikirlərinin toqquşmasından yaranır.

Vizerin tədqiqatının mühüm istiqamətlərindən biri də "əvəzetmə" nəzəriyyəsi ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, Avstriya məktəbinin yaradıcısı K.Menger sərvətin yaradılması prosesində iştirak edən istehsalın üç amilinin - əməyin, kapitalın və torpağın ayrı-ayrılıqda rolunu və əhəmiyyətini bir-birindən seçib ayırmamışdır. Mengerdən fərqli olaraq Vizer istehsalın üç amili konsepsiyasından çıxış edir və göstərirdi ki, bu amillərin əlaqələndirilməsini öyrənmək, sonra isə hər bir amilin digəri ilə əvəz ediləcək hissəsini müəyyən etmək lazımdır. Onun fikrincə əvəzetmənin vəzifəsi bir çox səbəblər içərisindən qoyulmuş məqsədə uyğun olan və buna görə də praktiki əhəmiyyət kəsb edən həlledici səbəbləri axtarıb tapmaqdan ibarətdir. Buradan isə Vizer belə bir nəticəyə gəlirdi ki, əvəzetmə gəlirin amillər üzrə bölünməsini faydalığının hesablanması aktından başqa bir şey deyildir. Öz iqtisadi tədqiqatında xüsusi mülkiyyətin səmərəliliyi məsələsinə də yer verən Vizer onu təsərrüfatçılığın məzmunu ilə müəyyən edirdi. Bu mövqeyi sübuta yetirmək üçün o, xüsusi mülkiyyətin səmərəsini aşağıdakı üç şərtlə əlaqələndirir: birincisi, öz mülkiyyətini digər iddiaçılardan qorumaq üçün təsərrüfat nemətlərinin xərclənməsinə qənaətlə yanaşmanın zəruriliyi; ikincisi - "mənimki" və "səninki" məsələlərinin fərqləndirilməsinin vacibliyi; üçüncüsü isə mülkiyyətin təsərrüfatçılıqla istifadəsi üçün hüquqi təminatın vacibliyi.

54. C.Klark-neoklassik nəzəriyyənin Amerikan məktəbinin banisi kimi fikrinizi əsaslandırın.(10)

55. C.Klarkın məhsuldarlıq həddi nəzəriyyəsini, məhsuldarlığın azalması qanunu izah edin(10)

56. A.Marşallın qiymət nəzəriyyəsi, tələbin elastikiliyi, natamam tarazlıq, əmək haqqı və mənfəət nəzəriyyəsini izah edin.(20)

61. Keynsin səmərəli tələb prinsipini və iqtisadiyyatın tənzimlənməsi nəzəriyyəsini izah edin.(10)

62. Keynsin bazar nəzəriyyəsini, ümumi psixoloji qanunu: istehlaka meyllik, kapitalın səmərəlilik həddi, faiz nəzəriyyəsi və Multiplikator nəzəriyyəsini izah edin(20)

63. Keynsçi cərəyanları: Amerikada keynsçilik, Neokeynsçilik, Fransada keynsçilik, Postkeynçilik cərəyanlarını və Akselerator nəzəriyyəsini izah edin.(20)

65. Monetaristlərin iqtisadi siyasətini, müxtəlif ölkələrdə monetar siyasətin tətbiqi xüsusiyyətlərini izah edin(10)

66. Neoliberalizm və monetarizmin fərqli və ümumi cəhətlərini müqayisə edin(10)

67. Monetarizmin nəzəri və metodoloji əsaslarını, M.Fridmenin baxışları: "Pul əhəmiyyat daşıyır" ideyasını xarakterizə edin.(20)

68. M.Fridmenin dəyişən və daimi gəlir konsepsiyasını, pul qanunu ideyasını, iqtisadi tsiklin, inflyasiyanın və işsizliyin monetar nəzəriyyəsini izah edin.(20)

70. l Təklif iqtisadi nəzəriyyəsini (A.Laffer) izah edin(10)

71.Səmərəli gözləmə nəzəriyyəsini (R.Lukas, T.Sarcent, N.Uolles, C.Mut) izah edin.(10)

72. Neoklassik sintez nəzəriyyəsini (C.Xiks və P.Samuelson) izah edin.(10)

73. Y.Şumpeterin təkamüllü iqtisadi inkişaf konsepsiyasını izah edin.(10)

74. İnstitusionalizmin Amerika məktəbini (T.Veblen,

C.Kommons, U.Mitçell) xarakterizə edin.(10)

75. Qeyri-müvazinətli bazar problemini və dövlətin iqtisadi rolunu xarakterizə edin (10)